HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.

# Yeni YOL

31 mart 2016-ci il

№006 (20)

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | “იენი იოლი” საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR



1813 və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin Azərbaycan torpaqlarına kütləvi surətdə köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

Erməni qəsbkarlar 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirdilər.

Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki qədim Azərbaycan torpaqlarını əhatə etdi.

Birinci Dünya müharibəsi, Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail oldular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur plan həyata keçirilməyə başlandı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olundu. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edildi.

**(Davamı 3-cü səhifədə)**

## KVİRİKAŞVİLİ: TƏHSİL İSLAHATI HÖKUMƏT ÜÇÜN ƏSAS MƏSƏLƏDİR



Təhsil sistemi islahatı hökumətin dördbəndlik planında əhəmiyyətli yer tutur. Bu barədə baş nazir Georgi Kvirikaşvili peşəkar təhsil islahatının təqdimat mərasiminin gedişində məlumat verib.

“Peşəkar təhsil ölkədə daha çox ixtisaslaşmış, rəqabət qabiliyyətli peşəkarlar və daha çox işlə təmin olunanlar deməkdir. Biz inanırıq ki, addım-addım davam etdirdiyimiz plan iqtisadiyyatı gücləndirəcək”, – baş nazir bəyan edib.

Baş nazir qeyd edib ki, ölkədə peşəkar təhsilin alman modeli yaradılacaq. Bu model əsasında tələbələr paralel olaraq peşə məktəblərində oxuya və ixtisasları üzrə işləyə biləcəklər.

“Təhsil islahatının birinci bloku peşəkar təhsilin tamamilə yeni modelidir. Bu model iş verən, dövlət və xüsusi sektor arasında əməkdaşlığa əsaslanan peşəkar təhsil sistemi deməkdir”, – o, bildirib.

Təhsilin sonunda həmin yerdə işini davam etdirməyə, yoxsa yenisini tapmağa, şəxsi biznesini yaratmağa və ya ali təhsil almağa tələbənin özü qərar verəcək.

## GÜRCÜSTAN İQTİSADİYYATINA İNVESTİSİYALARIN 40 FAİZDƏN ÇOXUNU AZƏRBAYCANLILAR QOYUB

Gürcüstan Milli Statistika Xidmətinin məlumatına əsasən, 2015-ci ildə azərbaycanlılar bu ölkənin iqtisadiyyatına 540 milyon dollar investisiya yatırıb.

Bu, Gürcüstan iqtisadiyyatına yatırılan birbaşa investisiyaların az qala yarısını – 40 faizindən çoxunu təşkil edir.

Ötən il Azərbaycanda yaşanan iki devalvasiya və bundan irəli gələn valyuta axını şəraitində Gürcüstana xeyli miqdarda kapital qoyuluşu baş verib.

Azərbaycanlıların Gürcüstan iqtisadiyyatına bu cür rekord həcmdə yatırım qoymasını ölkədəki münbit iqtisadi iqlimlə əsaslandırırlar. Azərbaycandan Gürcüstana investisiya axını 2012-ci ildən sürətlə artmaqdadır.

Azərbaycanlılar pulları Gürcüstanda maliyyə sektoru, energetika, otel biznesi və nəqliyyat layihələrinə yatırıblar. Habelə investisiyaların bir hissəsi tikinti sektoruna qoyulub.

Qərargahı Vaşinqtonda yerləşən Heritage fondunun 2016-ci il iqtisadi azadlıqlar üzrə indeksinə əsasən Gürcüstan Cənubi Qafqaz ölkələri arasında iqtisadi baxımdan ən azad ölkədir. İndeksdə Gürcüstan 23-cü yerdə qərar tutur. Müqayisə üçün qeyd edək ki, qonşu Ermənistan yalnız 54-cü yerlə kifayətlənməli olub.

## AVROPA PARLAMENTİNDƏ GÜRCÜSTANLA DOSTLUQ KOMİTƏSİ YARADILACAQ

Yaxın vaxtlarda Avropa parlamentində Gürcüstanla dostluq komitəsi yaradılacaq. Bu barədə “Gürcüstanın inkişafı fondu”nun liderlərindən biri olan Giorgi Ruxadze martın 28-də keçirdiyi mətbuat konfransında məlumat verib.

Ruxadzenin sözlərinə görə, o, bu məlumatı Avropa parlamentinin vitse-prezidentindən alıb.

## TBİLİSİ DƏNİZİ ƏRAZİSİNDƏ GÜRCÜ-TÜRKMƏN DOSTLUQ XİYABANI SALINIR



Gürcüstanın və Türkmənistanın müstəqilliyinin 25 illik yubileyi münasibətilə Tbilisi dənizi yaxınlığında yerləşən dendroloji parkda gürcü-türkmən dostluq xiyabanı salınacaq.

Xarici işlər nazirliyinin məlumatına görə, martın 26-da ağac əkmə mərasimində Türkmənistanın Gürcüstandakı səfiri, Gürcüstan DİN-nin müavini David Calaqaniya və Tbilisi meri David Narmania iştirak ediblər.

Türkmənistan səfirliyinə Tbilisi meriyasının dəstəyi ilə torpaq sahəsi ayrılıb.

## BİRİNCİ SİNİF ŞAGİRDLƏRİNİN QEYDİYYATI 4-18 APREL TARİXİNDƏ KEÇİRİLƏCƏK

Gürcüstanda birinci sinif şagirdlərinin qeydiyyatının birinci mərhələsi 4-18 aprel tarixində keçiriləcək. Bu barədə təhsil və elm nazirinin müavini Liya Qiqauri martın 30-da keçirdiyi mətbuat konfransında bəyan edib.

Qeydiyyat üç mərhələdə aparılacaq.

Birinci mərhələdə məktəblər bacısı və ya qardaşı artıq həmin məktəbdə oxuyan, valideynləri orada işləyən və ya eyni vaxtda iki və ya daha çox uşağı birinci sinfə gələn ailələrin uşaqlarını qeydiyyatdan keçirəcəklər.

Bu uşaqların birinci sinfə qəbul olunmaları üçün lazım olan sənədləri 19-18 aprel tarixində məktəbə təqdim etmək lazımdır.

Ikinci (4-25 may) və üçüncü (14-30 iyun) mərhələnin qeydiyyatı emis.ge saytında həyata keçiriləcək. Üçüncü mərhələdə uşaqlar vakant yerləri olan məktəblərdə qeydiyyatdan keçə biləcəklər.

Məktəblər ikinci mərhələnin iştirakçılarının sənədlərini mayın 30-dan iyunun 10-dək qəbul edəcəklər. Üçüncü mərhələdə qeydiyyata düşənlər üçün müddət göstərilməyib.

*XOŞBƏXTLİK REYTİNQİNDƏ BƏDBƏXTLİK PAYI* — 2

*TÜRK DÜŞMƏNLƏRİ YALANÇI VƏTƏNPƏRVƏRLƏRDİR VƏ ONLARIN ARZULARI GÜRCÜSTANI MƏHV ETMƏKDİR* — 3

*TERROR – DÜNYANIN TƏHLÜKƏ MƏNBƏYİ* — 4

*CƏHALƏTİN DÜNƏNİ VƏ BUGÜNÜ* — 5

*TƏBİƏTİN ÖVLADLARI (II hissə)* — 6

*GÜRCÜSTANIN İLLÜSTRASİYALAŞDIRILMIŞ TARİXİ* — 7

*ELİZBAR CAVELİDZENİN “FÜZULİ” MONOQRAFİYASI NƏŞR OLUNDU* — 8



Afiq MUXTAROĞLU
amuxtaroglu@mail.ru

## *XOŞBƏXTLİK REYTİNQİNDƏ BƏDBƏXTLİK PAYI*

**Bu dəfə sizlərlə reytinq barədə fikirlərimi bölüşmək niyyətindəyəm. Və istəyirəm sizə elə bu məqamda qafamı xarab edən bir xırdaca sirr açam. Və bəri başdanca qulağınıza pıçıldayam ki, mən bu reytinq deyilən zada o qədər də etibar etmirəm. Amma orasını da bilirəm ki, mənim bu cür düşünməyimə dodaq büzənlər, qılınc çəkənlər olacaq, üstündən basa-basa söyləyəcəklər ki, balam, dağ boyda təşkilatların bir ətək xərc çəkib tərtib etdikləri gül kimi reytinqə sən niyə inanmayasan, niyə onun nəticələrini şübhə altına alasan. Heç səndə zərrə qədər də olsa vicdan varmı? Elə bu qorxuürkü ilə də, canımın canı çıxsın deyib, reytinq mövzusunda bir yazı guppuldatmaqla dedi-qodudan qurtaracağımı düşünürəm.**

Ancaq orasını da qulluğunuza ərz edim ki, kimin tərtibləməsindən asılı olmayaraq, bu reytinqlərdə ilk üçlüyə, ilk beşliyə və ya onluğa düşmənin ləzzətli bir zad olmasını da vurğulamadan keçmək olmur. Lap deyək ki, ilk iyirmiliyə düşməyin özü də bəd bir göstərici deyil. Yeri gələndə yüz ölkə arasında 50-ci olmağa, 150 ölkə arasında orta pillələrdə qərarlaşmağa da gərək ki, pis baxılmasın. Ölkəmizin söz azadlığına görə 84-cü pillədən 69-cu yerə yüksəlməsinin nəyi pisdir ki? Freedom House kimi əjdaha bir qurumun mətubat azadlığı sıralamasında 199 ölkə arasında 93-cü olmamız da bizim qurur mənbəyimizdir. 2015-ci ildə sülhsevərliyimizə görə bizim böyük sıçrayışla 139-cu yerdən 79-cu yerə çıxmamız da bu sahədəki mərifətimizdən xəbər verir. Rəqabət qabiliyyətimizə görə bizə 66-cı pillənin rəva görülməsi də xeyirli əlamət sayılmalıdır. “Doing Business 2016”nın biznes fəaliyyətinə əlverişli şərait yaratdığımıza görə, bizi fəxri 24-cü yerə layiq görməsi üzümüzün gülməsinə nədən olmazmı deyirsiniz?

Bu siyahını uzada da bilərəm, ucundan tutub ucuzluğa getmək imkanım da yox deyil. Amma məni tutub saxlayan bir zad var ki, bu reytinq konusunda danışdıqca məni uzunçuluqda suçlayanlar da olacaq. Mən durub desəm ki, tütün tükətmək üzrə də yerimiz pis mənada irəlidədir, bəlkə də məni qınayacaqlar. Sözarası onu da deməyi özümə borc bilirəm ki, tütündən çox istifadə edilməsi ölkəni iqtisadi yöndən geri atır. Bunun mütəxəssis rəyi olmasını da nəzərdən qaçırmayaın. Deyək ki, ölkəmizə gələn turistlərin sayına görə də durumumuz yaxşıdır, istehsal etdiyimiz şəraba görə də söz yiyəsiyik və daha nələri deyim.

Ancaq düşündürücü olan odur ki, müxtəlif sahələrdə belə bomba mövqeyimizə baxmayaraq, vətəndaşımız narazıdır, vətəndaşımız bunlara qane olmur. Bəzən bu siyahılarda gətirilən rəqəmlər gerçəkliklə üst-üst düşmür, vəziyyətimizi olduğu kimi əks etdirmir. Düzdür, biz ildən ilə bu reytinq cədvəllərində, nəmxuda, göz dəyməsin, irəliləməkdəyik, mövqelərimizi yaxşılaşdırmaqdayıq, ən azından dünya ölkələri arasında özümüzə yer etməkdəyik, uzaq-yaxın məmləkətlərdə özümüzü tanıtmaqdayıq. Di gəl ki, keçən sayımızda da vurğuladığımız kimi, üzümüz gülmür, qırşığımız açılmır. Əcaba, nədən? Burada hansı müəmma var ki, biz bu dərdə düşmüşük, xoşbəxtlikdən nəsibimizi ala bilmirik?

Və qəribəlik orasındadır ki, postsovet məkanında yaşayan əhali arasında ən bədbəxti yenə də bizik. “Sabit inkişafın həlli şəbəkəsi” beynəlxalq layihəsini hazırlayan analitiklər 2015-ci ilin göstəricilərinə görə, xoşbəxtlik reytinqdə Gürcüstanı 130-cu yerdə yerləşdirməklə yanlışlığamı yol veriblər, ya bəlkə bizdən xoşları gəlmədiklərindən belə bir mövqe sərgiləyiblər? Adamın Allahı var, mən onların bizə qarşı düşmən mövqe tutmalarına inanmıram. Nədən ki, bu layihəni tərtib edənlərin inanmıram ki, bizimlə bir bölünməmiş malları olsun və o üzdən də bizə qarşı belə davransınlar. Xoşbəxtlik reytinqinin 130-cu pilləsində özümüzə yer etməklə biz nə qədər xoşbəxtik?

Elə yazıma nöqtə qoymaq istəyirdim ki, BMT boyda nəhəngin “Xoşbəxtlik indeksi” özünü yetirdi. Dünya Xoşbəxtlər günü münasibətilə düzənlənmiş bu reytinqdə də mövqeyimiz o qədər könüləçan deyil. 156 ölkənin əhalisi arasında biz 126-cı yerdəyik. Qonşularımıza diqqət yetirin: Qana, Konqo və Seneqal. Burada bir qeydimi də dilə gətirim ki, bəxtəvərliyə bax, 20 mart dünyada xoşbəxtlər günü kimi qeyd olunurmuş.

**Reytinqin birinci onluğunu Danimarka, İsveçrə, Finlandiya, Norveç, İsveç kimi ölkələrin əhalisi qamarlayıb. Xoşbəxtlik indeksində birinci onluqda olanlara necə qibtə etməyəsən? Sonda mübarək qulluğunuza bir əcaib sual vermək istəyirəm. Əcaba, biz bu gedişlə ilk onluğa və ya iyirmiliyə, lap elə olsun otuzluğa nə vaxt düşə bilərik?**

## BAŞ NAZİR AZƏRBAYCANLILARIN NOVRUZ BAYRAMINI TƏBRİK ETDİ



“Əziz həmvətənlər, sizləri bu böyük bayram münasibəti ilə təbrik edirəm. Yeni ilin, yazın gəlişini təbrik edirəm. Sizləri yenilənmə, sevgi və sevinc bayramı münasibəti ilə təbrik edirəm. Novruz bayramınız mübarək!” - Baş nazir Giorgi Kvirikaşvili Marneulidə azərbaycanlıları Novruz Bayramı münasibəti ilə şəxsən təbrik edib. Giorgi Kvirikaşvili Marneulinin mərkəzi küçəsində xüsusi olaraq bu gün üçün hazırlanan etnoguşə ilə, ənənəvi şirniyyat süfrəsi ilə, rəsm sərgisi ilə tanış olub.

“Bİz ölkəmizi birlikdə quracağıq. Bizi birləşdirən çox şey var. Bu bizim vətənimizin daha yaxşı gələcəyinin inşasıdır. Biz ölkəmizdə bu qədər vətənpərvər olması ilə fəxr edirik. Bizim bir vətənimiz , bir bugünümüz var. Biz birlikdə aydın gələcək qurmalıyıq. Təbrik edirəm. Sizlərə uzun ömür və can sağlığı arzu edirəm”, – deyə baş nazir çıxışı zamanı qeyd edib.

## QARDABANİDƏ NOVRUZ BAYRAMINA HƏSR OLUNMUŞ ŞƏNLİKLƏR KEÇİRİLİB

Martın 20-də Qardabani rayon Mədəniyyət Evində Azərbaycan və Gürcüstan dövlətlərinin rəsmi nümayəndələrinin də iştirak etdiyi Novruz bayramına həsr olunan şənlik keçirilib.

Tədbirdə Gürcüstanın rəsmi dövlət adamları ilə bərabər, Azərbaycanın Gürcüstandakı səfirliyinin və Diasporla İş üzrə Dövlət Komitəsinin nümayəndələri və Qardabani rayon icra hakimiyyətinin rəhbəri Qoça Çamarauli, onun müavini Dünyamalı Hacıyev, eləcə də ətraf kəndlərdə yaşayan azərbaycanlılar, gürcülər və qonaqlar Novruz tədbirinin iştirakçısı olublar.



Tədbirdə Novruz bayramının atributları olan Kosa və Keçəlin məzəli səhnələri, Bahar qızının gəlişi, ənənəvi şahmat və nərd yarışları, Novruz şirniyyatları sərgisi və cıdır yarışları nümayiş olunub. Mərasimdə ifa olunan el mahnılarını, söylənən şeir parçalarını və səhnəcikləri tamaşaçılar yüksək əhvali-ruhiyyə ilə qarşılayıblar.

## RUSTAVİDƏ KEÇİRİLƏN NOVRUZ ŞƏNLİKLƏRİ DOSTLUĞUN VƏ QARDAŞLIĞIN RƏMZİNƏ ÇEVRİLDİ



Martın 19-da Rustavi şəhərində ənənəvi Novruz şənliyi keçirilmişdir. Bu il də Novruz bayramı azərbaycanlıların və gürcülərin birlikdə qeyd etdikləri mərasim kimi yadda qaldı. Rustavi teatrında Rustavi Azərbaycanlılarının Mədəni Cəmiyyəti və “Varlıq” Mədəniyyət Mərkəzinin birgə təşkilatçılığı, Salam Mədəni Xeyriyyə Cəmiyyətinin və Loğman Tibb Klinikasının dəstəyi ilə düzənlənən tədbirdə bölgə qubernatorunun müavini, Rustavi şəhərinin meri, Azərbaycanın bu ölkədəki səfirliyinin məsul əməkdaşları, şəhər ictimaiyyətinin nümayəndələri və bölgələrdən dəvət olunmuş qonaqlar iştirak edirdilər.

Mərasimin təşkilində böyük əməyi olan “Varlıq” Mədəniyyət Mərkəzinin rəhbəri Rafiq Hümmət tədbirin sonunda bunları söyləyib:

– Rustavi şəhərində Novruz bayramına həsr olunmuş növbəti bayram tədbirlərimiz bu dəfə də, bütün həyəcan və təlaşlara rəğmən, istədiyimiz şəkildə baş tutdu. Gürcü dostlarımızla birgə ağzınadək dolu olan Rustavi Mədəniyyət Sarayında xalqımızın milli Bahar bayramını qeyd etdik, maraqlı konsert proqramını dinlədik. Cəfakeş ziyalımız Bəhram Isayev başda olmaqla, əməyi keçənlərə, bizi tək qoymayan və böyük dəstək verən dostlarımıza – Loğman Tibb Klinikasının direktoru Elcan Abdullaha, Salam Mədəni Xeyriyyə Cəmiyyətinin sədri Maya xanım Rəcəbovaya, Məlahət müəllimə başda olmaqla, Rustavi şəhər 18 saylı məktəbin azərbaycanlı şagirdlərdən ibarət özfəaliyyət kollektivinə, hər iki hissədə böyük əmək sərf edən Nizami Qəmlinin rəhbərlik etdiyi "Gənclik" ansamblının üzvlərinə, "Ceyran" rəqs qrupuna, Aşıq Nargilə Mehdiyevaya, gənc aşığımız Maksim Rəcəbova, dəyərli dostlarımız şair Tapdıq Yolcuya, Zabit Sadıqova, mediya və televiziya nümayəndələrinə və bütün iştirakçılara könüldən təşəkkür edirəm.

## GÜRCÜSTAN TƏHSİL VƏ ELM NAZİRİNİN MÜAVİNİ KOSALI MƏKTƏBİNƏ BAŞ ÇƏKİB



Gürcüstan Elm və Təhsil Nazirliyi və Müəllimlərin Peşəkar Milli İnkişaf Mərkəzi mütamadi olaraq, qeyri-gürcü məktəblərində müəllimlərlə görüşlər keçirir, gürcü dilinin tədrisinin səviyyəsi ilə maraqlanır. Belə görüşlərdən biri martın 30-da Qardabani rayonundakı Kosalı ictimai məktəbində olub. Adı çəkilən qurumların nümayəndələri “Qeyri-gürcü məktəblərində müəllimlərin peşəkar inkişafı” proqramı çərçivəsində məsləhətçi və köməkçi müəllimlərin fəaliyyətlərinin daha da yaxşılaşdırılması məqsədilə bu sahəyə xüsusi diqqət yetirirlər.

Gürcüstan Təhsil və Elm nazirinin müavini Liya Qiqaurinin və Müəllimlərin Peşəkar Milli İnkişaf Mərkəzinin rəhbəri Qiya Mamulaşvilinin rəhbərliyilə bir qrup mütəxəssis Kosalı ictimai məktəbinə səfər edərək, həmin məktəbdə çalışan məsləhətçi müəllim Zeynəb Beradzenin və köməkçi müəllim Telnaz Məmmədovanın qeyri-gürcü, daha doğrusu azərbaycanlı müəllimlərlə necə işləmələri ilə əyani tanış olub.

## 31 MART AZƏRBAYCANLILARIN SOYQIRIMI GÜNÜDÜR

(əvvəli 1-ci səhifədə)

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağ, Zəngəzur, Naxçıvan, Lənkəran və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqla həyata keçirildi. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirildi, kəndlər yandırıldı, milli mədəniyyət abidələri dağıdılıb məhv edildi.

Azərbaycan Xalq Cümhuriyyəti yarandıqdan sonra 1918-ci ilin mart hadisələrinə xüsusi diqqət ayrıldı. Nazirlər Şurası 1918-ci il iyulun 15-də bu faciənin tədqiqi məqsədilə Fövqəladə istintaq komissiyasının yaradılması haqqında qərar qəbul etdi. Komissiya mart soyqırımını, ilkin mərhələdə Şamaxıdakı vəhşilikləri, İrəvan quberniyası ərazisində ermənilərin törətdikləri ağır cinayətləri araşdırdı. Dünya ictimaiyyətinə bu həqiqətləri çatdırmaq üçün Xarici İşlər Nazirliyi nəzdində xüsusi qurum yaradıldı. 1919 və 1920-ci il mart ayının 31-i iki dəfə AXC tərəfindən Ümummilli Matəm Günü kimi qeyd edildi.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra torpaqlarını Ermənistan SSR-in ərazisi elan etdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların deportasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atdılar. 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail oldular.

1988-ci ildən ortaya atılan Dağlıq Qarabağ münaqişəsinin ilkin mərhələsində yüz minlərlə azərbaycanlının öz tarixi torpaqlarından qovulmasına düzgün siyasi qiymət verilmədi. Azərbaycanın Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan SSR-in tərkibinə daxil edilməsi haqqında ermənilərin qeyri-konstitusion qərarını və Moskvanın əslində bu vilayəti Xüsusi İdarəetmə Komitəsi vasitəsilə Azərbaycanın




tabeliyindən çıxarmasını xalqımız ciddi narazılıqla qarşıladı və mühüm siyasi aksiyalara əl atmaq məcburiyyəti qarşısında qaldı. 1990-cı ilin yanvar ayında getdikcə güclənən xalq hərəkatını boğmaq məqsədilə Bakıya qoşunlar yeridildi, yüzlərlə azərbaycanlı məhv və şikəst edildi, yaralandı, digər fiziki təzyiqlərə məruz qaldı.

1992-ci ilin fevral ayında ermənilər Xocalı şəhərinin əhalisinə misli görünməmiş divan tutdu. Tariximizə Xocalı soyqırımı kimi həkk olunan bu qanlı faciə minlərlə azərbaycanlının məhv edilməsi, əsir alınması, şəhərin yerlə-yeksan edilməsi ilə qurtardı.

Bu gün bir milyondan artıq soydaşımız erməni qəsbkarlar tərəfindən öz doğma yurd-yuvalarından didərgin salınıb, ərazimizin 20 faizinin erməni silahlı qüvvələri tərəfindən işğalı zamanı minlərlə vətəndaşımız şəhid oldu, xəsarət aldı.

Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi Azərbaycan Respublikası bu gün onun axıra qədər həyata keçirə bilmədiyi qərarların məntiqi davamı olaraq, soyqırım hadisələrinə siyasi qiymət vermək borcunu tarixin hökmü kimi qəbul edir. Azərbaycan prezidenti Heydər Əliyevin 1998-ci il 26 mart tarixli fərmanından sonra hər il 31 mart Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində qeyd edilir.

Elnur SƏFƏROV

## AZƏRBAYCAN VƏ GÜRCÜSTAN MƏDƏNİYYƏT SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA HAZIRDIR

Martın 17-də Bakıda Azərbaycan mədəniyyət və turizm nazirliyinin və Gürcüstan mədəniyyət və abidələrin mühafizəsi nazirliyinin yaratdığı işçi qruplarının ilk iclası keçirilib.

Bu barədə Azərbaycan mədəniyyət və turizm nazirliyindən verilən məlumatda bildirilib.

İclasda hökumətlərarası razılaşma çərçivəsində mədəniyyət sahəsində əməkdaşlıq proqramının imzalanması barədə məsələ müzakirə edilib.

Görüşdə həmçinin Bakı və Tbilisinin kinematoqrafiya, muzey işi, incəsənət, təhsil və mədəni irsin qorunması sahəsində əməkdaşlığın vəziyyəti və prespektivləri barədə söhbət açılıb.

## TÜRK DÜŞMƏNLƏRİ YALANÇI VƏTƏNPƏRVƏRLƏRDİR VƏ ONLARIN ARZULARI GÜRCÜSTANI MƏHV ETMƏKDİR

**Gürcü KİV-ində son vaxtlar David Tarxan-Mouravinin başçılıq etdiyi "Vətənpərvərlər alyansı" kimi bir siyasi qüvvə görünməyə başladı. Gürcü politoloqları uzun müddət bu siyasi qüvvənin haradan maliyyələşdiyini və bunun hesabına sürətlə siyasi xal topladığını anlaya bilmədilər.**

Saqarecodakı majoritar seçkilərdə "Vətənpərvərlər alyansı"nın namizədi İrma İnaşvilinin qələbə çalması üçün lap az səs çatmadı. Öz növbəsində o, Tbilisi şəhər meri seçkilərində dördüncü yerə çıxdı, "Vətənpərvərlər alyansı" isə Tbilisi şəhər sakrebulosuna seçkilərdə 5%-lik həddi keçərək, şəhər şurasına iki deputatını keçirə bildi.

Bu hələ hamısı deyil. "Vətənpərvərlər alyansı"nın reytinqi o qədər sürətlə artır ki, son siyasi sorğulara görə o, keçmiş iqtidar partiyası "Vahid Milli Hərəkat"ı (VMH) üçüncü yerə sıxışdırıb, bu gün populyarlığına görə yalnız hakim "Gürcü arzusu" koalisiyasından geri qalır. 2016-cı ilin 8-29 yanvar tarixində Ekspress Nyus- Research-ın sorğularının nəticələrinə görə "Gürcü arzusu"nu rəyi soruşulanların 31%-i, "Vətənpərvərlər alyansı"nı 23%-i, VMH-ı isə 20,1%-i dəstəkləyir. Yanvar ayı ilə müqayisədə "Vətənpərvərlər alyansı"nın populyarlığı yenə də arta bilər.

Bununla belə bütün, o cümlədən də onların mövqeylərini və ideyalarını guya bölüşməyən KİV-də "Vətənpərvərlər alyansı"nın sifarişli siyasi piyar kampaniyası gedir. Yaxınlara qədər tanınmayan partiyanın kəskin yüksəlişinin səbəbi və ən əsası bu siyasi qüvvənin maliyyələşməsi haradandır?

Əgər partiyanın lideri David Tarxan-Mouravinin son mülahizəsini təhlil etsək, hər şey yerini tutacaq. O, nə az, nə çox "erməni soyqırımı"nı tanımağı təklif edir və eyni zamanda 80 milyonluq xalqın yaşamaq hüququna etinasızlıq göstərərək, Türkiyəyə qarşı tamamilə ağılsız ərazi iddiası ilə çıxış edir.

David Tarxan-Mouravi Gürcüstan hökumətinə təkcə qondarma "erməni soyqırımı"nı tanımağı məsləhət görmür, həm də erməni xalqına Türkiyənin parçalanması hesabına onların tamamilə ağılsız "böyük dövlətçilik" məqsədlərinə çatmaqda uğur arzulayır.

"Türkiyəyə bir kvadratmetr türk torpağı məxsus deyil. Bu dövlət tamamilə süni şəkildə yaradılıb və bu gün də ya yunan, ya gürcü, ya da erməni ərazilərində yerləşir. Türkiyə hər yerə soxulmağa çalışıb. Bu həqiqətən də soyqırım idi, erməniləri yalnız erməni olduqlarına görə öldürüblər. Onlardan çoxu öz torpaqlarını məcburi şəkildə tərk ediblər. Soyqırımdan orada gürcülər də əziyyət çəkib, sadəcə bu barədə susurlar.", – David Tarxan-Mouravi bəyan edib.

Bəli, həqiqətən də, 1914-1918-ci illərdə gürcü müsəlmanlar (ilk növbədə də acarlar və lazlar) soqırımdan əziyyət çəkiblər. Lakin gürcü müsəlmanlarının soyqırımını heç bir vəchlə türklər təşkil etməmişdilər. David Tarxan-Mouravinin sevimli erməniləri etmişdilər. Bəli, doğrudan da, bu barədə hamı susur. Bir qədər əvvəl yalnız bizim Kavkazplus saytı əsas hissəsi gürcü xalqına aid olan bu dəhşətli mövzunu qaldırmışdı ("Erməni silahlıları tərəfindən lazların soyqırımı: tarixin bilərəkdən unudulan səhifələri" http://kavkazplus.com/news.php?id=2298).

Yeri gəlmişkən, David Tarxan-Mouravi özünün antitürk siyasəti vasitəsilə yaşadıqları torpaqlarda yenə də yaşayan və Türkiyədə heç kimin sıxışdırmağı düşünmədiyi gürcü müsəlmanların sağ qalmış nəsillərini təkrar soyqırıma sürükləyir. Əgər Türkiyə parçalansa, elə erməni millətçiləri də bunu istəyir, onun bir qırıq torpağı da Gürcüstana çatan deyil (əksinə gürcü ərazisi, ilk növbədə də Samsxe-Cavaxeti "Böyük Ermənistanın" xeyrinə zorla qoparılacaq). Xatırladaq ki, Türkiyə ərazisindəki bütün gürcü məbədlərini ermənilər çoxdan "özününki" elan edib. Deməli, on minlərlə lazı, acarı, şavşı, imerxevi və digər gürcü müsəlmanını ya məhv olmaq, ya da sürgün gözləyir. Ermənilərin əlinə düşən gürcü kilsələri isə (yeri gəlmişkən, bu gün Türkiyə onları dövlət büdcəsi hesabına bərpa edir) tezliklə erməniləşdiriləcək və ya dağıdılacaq ki, burada gürcü mədəniyyətinin izi qalmasın.

Lakin David Tarxan-Mouravi erməniləri "göylərə qaldırır". O, belə də bəyan edir: "Mən erməni xalqına heyranam, ermənilərə afərin! Onlar illərdir mübarizə aparırlar ki, dünya onların Türkiyədəki soyqırımını tanısın. Biz onlardan nümunə götürməliyik, çünki biz bu məsələni heç vaxt qaldırmamışıq, amma türklər o qədər gürcünün qanını axıdıblar ki, Qara dəniz bundan qızara bilərdi...".

Cənab David Tarxan-Mouraviyə elementar tarixi faktları xatırladaq. Osmanlı imperiyası və Azərbaycan Səfəvilər dövləti öz aralarında düşmənçilik edirdilər və öz aralarında 300 ilə yaxın arası kəsilməyən müharibələr aparmışlar. Məhz bu müharibələrin gedişində gah bu, gah da digər dövlətin tərəfini tutaraq, iştirakçı olan gürcü çarlıq və knyazlıqları itkilər vermişlər. Əgər Osmanlı-Səfəvi müharibələrindəki itkiləri cəmləsək, burada türklər və azərbaycanlılar gürcülərədən daha çox məhv olublar. Bu, əslində düşmənçilik edib, bir-birini zəiflədərək, ümumi düşməni sevindirən iki qardaş türk xalqının faciəsidir.

İndi azərbaycanlılar nə etsinlər? David Tarxan-Mouravinin məntiqi ilə azərbaycanlılar ermənilərin Qarabağı işğal etmələrini və 1 milyondan artıq azərbaycanlını oradan didərgin salmalarını, Xocalını və erməni silahlıları tərəfindən öldürülən və əzab verilən minlərlə dinc sakini unutmalıdırlar.

Nəyə görə ölkəsinin vacib siyasi və iqtisadi tərəfdaşı olan bir ölkə ilə ara vurmaq və eyni zamanda Abxaziyadan erməni silahlıları tərəfindən 300 min gürcünün qovulmasını "unutmaq" kimi ağılsız və təhrikçi fikir gürcü siyasətçisinin beynindən çıxır?..

"KavkazPlus"

Tərcümə edəni: Afayət AFİQ

*(Davamı gələn sayımızda)*

## GÜRCÜSTAN BMT-NİN VERSİYASINA GÖRƏ ƏN BƏDBƏXT ÖLKƏLƏR SIRASINDADIR

BMT "Xoşbəxtlik indeksi" təşkilatının tərtib etdiyi müxtəlif ölkələrin əhalisinin özünü nə dərəcədə xoşbəxt və məmnun hiss etdiyini əks etdirən reytinqi dərc edib. Reytinqdə Rusiya 56-cıdır. Azərbaycan siyahının ortasında 81-ci yerdə qərarlaşıb. Ermənistan və Gürcüstan Qana, Konqo və Seneqalla qonşuluqda müvafiq olaraq 121-ci və 126-cı yerləri tutub.

Araşdırılmış 156 ölkə əhalisindən ən xoşbəxtləri Danimarka sakinləridir. Ikinci yeri isveçrəlilər tutur. Ümumilikdə ilk onluğa əsasən Skandinaviya əhalisi daxildir.

Ermənistan və Gürcüstan reytinq sonlarında yer alıblar, burada intiharlar çox deyil, bununla belə ÜDM də yüksək deyil, vətəndaşlar isə korrupsiyaya görə fəal şəkildə hakimiyyətdən narazıdırlar.

Reytinqin tərtibçiləri bərabərliyi mühüm faktor hesab edirlər. Hansı ölkələrdəki bir və ya bir neçə sosial qrup üçün deyil, hamı üçün gəlir və təhsil imkanları və həyat səviyyəsi yüksəkdir, orada əhalinin xoşbəxtlik səviyyəsi də yuxarıdır.

Ümumilikdə il ərzində dünyada xoşbəxtlik səviyyəsi bir qədər artıb. Bu, firavan Avropa ölkələrinin hesabına yox, Afrikanın hesabına mümkün olub.

# TERROR – DÜNYANIN TƏHLÜKƏ MƏNBƏYİ

**Son zamanlar beynəlxalq terrorizim zəmanəmizin ən ciddi qlobal probleminə çevrilməkdədir. Bu bəla təkçə konkret bir dövlətin təhlükəzisliyi üçün yox, ümumiyyətlə bütün dünya ictimayyəti üçün təhlükə yaradır. Əgər əvvəllər terror Yaxın Şərq kimi ənənəvi beynəlxalq münaqişələr ocağı olan region üçün xarakterik idisə, hal-hazırda inkişaf etmiş ABŞ və Qərbi Avropa ölkələri də ondan sığortalanmayıb. Martın 22-də Avropanın göbəyində – Brüseldə ard-arda baş verən terror aktları dünya ictimaiyyətini dərindən sarsıtmış, bu qorxunc bəlaya bir daha lənət oxutmuşdur.**

Bu gün terror aktlarının sayının artmasının müasir beynəlxalq münasibətlərdə yaşanan qlobal problemlərlə sıx bağlılığı vardır. Terror artıq qlobal problemlər içərisində həll olunması gərəkli, lakin bir o qədər də müşkül olan yaşam mübarizəsinə çevrilmişdir. Son 10 il ərzində dünyada 140 min dinc və günahsız insan terror aktları nəticəsində həlak olmuşdur. Ona görə də artıq dünyanın inkişaf etmiş ölkələri tərəfindən terrorrizmə qarşı vahid koordinasiya mərkəzinin yaradılması və ona qarşı birgə mübarizə aparılması labüddür. İstənilən dövlətin iqdisadiyyatını, xarici və daxili siyasət istiqamətlərini təhdid edən terror gündəlik həyatın da bütün sahələrini vahimə içərisində saxlamaqdadır.

Bu il Fransada baş tutacaq futbol üzrə Avropa çempionatının final mərləsi çərçivəsində keirilləcək oyunların boş tribunalarda oynanılması və yaxud təxirə salınması ehtimalı var. Səbəb isə terror təhlükəsi ehtimalıdır. Bu barədə UEFA-nın rəsmisi Martin Kallen açıqlama vermişdir.

Terrordan əziyyət çəkən ölkələr sırasında Türkiyənin öndə olması acı həqiqətdir. Türkiyə parlamentində təmsil olunan Barış və Demokratiya Partiyasının (BDP) PKK terror təşkilatı ilə sıx bağlılığına heç kimin şübhəsi yoxur . Ankaranın PKK-ya qarşı apardığı antiterror əməliyyatlarından ən çox narahat olan BDP və onun lideri Səlahəddin Dəmirtaşın keçən ilin dekabrında Rusiyanın xarici işlər naziri ilə görüşu sakit və birmənalı qarşılanmamalıdır. Rusiya-Türkiyə, Türkiyə-İsrail münasibətlərində yaşanan gərginliklərdən sonra Türkiyədə terror aktlarının intensivləşməsi düşündürücüdür. Bundan başqa iki dəfə planlaşdırılan, lakin hər dəfə təxirə düşən Azərbaycan və Türkiyə liderlərinin yüksək səviyyədə görüşləri ərəfəsində Ankarada baş verən terror hadisələrinin haradan idarə olunması üstüörtülü sual döğurur.

Fərqli ölkələrdə baş verən terror olaylarına münasibət də çox təssüf ki, fərqlidir. Keçən ilin yanvarın 7-də Parisdə Charlie Hebdo dərgisində baş vermiş terror aktında həyatlarını itirmişlərin anımı üçün təşkil olunmuş yürüşdə dünyanın 45 öndə gələn dövlət və hökumət başçıları iştirak etdiyi halda, Ankarada baş verən anoloji terror olayının yaralarının sarılmasında heç bir xarici rəsminin iştirak etməməsi maraq doğurur.

**Son vaxtlar terror təşkilatlarının islam coğrafiyasında fəlliyyət göstərməsi və onların idealogiyalarının islam dini ilə eyniləşdirilməsi ayrica əndişə verməkdədir. Bu da fərqli dini baxışları olan insanlarda stereotiplərə qapılaraq islamafobiya əhval-ruhiyyəsi yaratmaqdadır. Əslində isə terrorun dini və milliyyəti yoxdur. Bu gün çoxsaylı terror təşkilatlarının mövcudluğu, onlara himayədarlıq edən və silah-sürsatla təhciz edən ölkələrin olması heç kimə sirr deyil. Həmin dövlətlər öz strateji maraqlarına çatmaq üçün zaman-zaman terror təşkilatlarına fitva verməkdərirlər. Lakin, qorxu və vəhşilik saçan bu baş bəlası problemin bir dəfəlik yox edilməsinin konkret düsturu da yoxdur. Yalnız dünya birliyinin terrora qarşı birgə mübarizəsi, təhlükəzisliyi təmin etmək üçün ən yeni texnoloji vasitələrin tətbiqi sayəsində konkret nailiyyət əldə etmək olar.**

Sahib MUSTAFA

## TÜRKİYƏ İLƏ AVROPA BİRLİYİ ARASINDA VİZASIZ REJİMİN TARİXİ BƏLLİ OLDU

Türkiyə ilə Avropa İttifaqı arasında viza rejiminin aradan qaldırılmasına dair qərar bu il iyulun 1-dən qüvvəyə minəcək.

Bu barədə "Bloomberg" agentliyinə açıqlamasında Türkiyə Xarici İşlər Nazirliyinin adının açıqlanmasını istəməyən əməkdaşı bildirib.

Xatırladaq ki, bir neçə gün əvvəl Brüsseldə keçirilən Aİ-Türkiyə sammitindən sonra Türkiyənin baş naziri Əhməd Davudoğlu viza rejiminin iyunun sonunadək ləğv ediləcəyi barədə açıqlama vermişdi.

"İyunun sonunadək, Niderlandın sədrliyinin başa çatmasınadək, viza rejiminin ləğvi üzrə proses bitəcək", – deyə Əhməd Davudoğlu bildirmişdi.

Elə bu ərəfədə Fransa prezidenti Fransua Olland qeyd etmişdi ki, viza rejiminin ləğv edilməsi haqqında qərarın qəbul olunması Türkiyənin Avropa İttifaqı tərəfindən irəli sürülən 72 öhdəliyi yerinə yetirməsindən asılıdır.

## BELÇİKADA HƏLAK OLANLARIN SAYI ARTDI

Brüsseldəki terror aktı zamanı yaralanaraq xəstəxanada müalicə olunanlardan dördü də dünyasını dəyişib.

Belçikanın paytaxtı Brüsseldə martın 25-də baş vermiş partlayışlar zamanı yaralananlardan dördü də xəstəxanada dünyasını dəyişib.

Beləliklə baş vermiş partlayışlar zamanı həlak olanların sayı 35-ə çatıb.

Xatırladaq ki, martın 25-də Brüsseldə şəhərin dörd müxtəlif yerində partlayışlar baş vermiş, hadisə zamanı 31 nəfər həlak olmuş, onlarla insan isə yaralanmışdı.

## RADOVAN KARADZİCƏ 40 İL HÖKM OXUNDU



1995-ci ildə Srebrenika qırğınına göstəriş verməkdə ittiham olunan serb lideri 40 il müddətinə azadlıqdan məhrum edilib.

Qeyd edək ki, Karadzic həmin hadisələrə görə Haaqa tribunalında mühakimə olunan ən yüksək çinli şəxsdir. 20 il öncə baş vermiş etnik müharibədə 100 mindən çox insan həlak olub.

Karadzic 11 illik axtarışdan sonra 2008-ci ildə saxlanıb. Ona qarşı irəli sürülən əsas ittiham odur ki, o, 1995-ci ildə Bosniya Serb Respublikasının ali baş komandanı kimi Serbiya qüvvələrinə rəhbərlik edib. Bu qüvvələr isə 8 mindən çox müsəlman kişi və oğlanı qətlə yetiriblər. Karadzicə qarşı irəli sürülən daha bir ittiham isə ölkənin Bosniya müsəlmanlarından və etnik xorvatlardan təmizlənməsidir.

## VOLKSWAGEN 800 MİN AVTOMOBİLİ GERİ ÇAĞIRIR

"Volkswagen" şirkəti pedal mexanizmində prolem ola biləcəyi ehtimalı ilə 800 mindən çox avtomobilin geri çağrılmasını elan edib. Bu barədə Bi-Bi-Si məlumat yayıb.

Qeyd olunur ki, söhbət 2011-2016-cı illərdə buraxılmış 391 min Volkswagen Touareg və 410 min Porsche Cayenne modelindən gedir. Hər iki model eyni platformalarda quraşdırılıb.

2015-ci ilin sentyabrında "Volkswagen" zərərli qazların atmosferə atılma testinin saxtalaşdırılmasını etiraf etmişdi. Testin nəticələrinin saxtalaşdırılması ABŞ-da dizel mühərrikli yarım milyona yaxın avtomobili əhatə edir.



Atmosferə aşağı səviyyədə buxar qazının buraxılması Volkswagenin reklam komaniyasının əsaslarından birini təşkil edir ki, bununla alman şirkəti Toyota konsernini ötüb keçməyə nail olmuşdur.

## RUSİYA NEFT-QAZ GƏLİRLƏRİNİN ÜÇDƏ BİRİNİ İTİRİB

2016-cı ilin ilk iki ayında neft-qaz satışından Rusiya büdcəsinə daxil olan gəlirlər kəskin şəkildə azalıb.

Bu göstərici keçən ilin eyni dövrü ilə müqayisədə 32% azalır. Neft-qaz satışından gələn gəlir 687,628 milyard rubl təşkil edib. Halbuki 2015-ci ilin yanvar-fevral aylarında bu rəqəm 1,05 trilyon rubl olub. Neft-qaz satışından büdcəyə daxil olmalar 45,9%-dən 37,3%-ə düşüb.

Rusiya baş nazirinin müavini Arkadi Dvorkoviç qeyd edib ki, Rusiya artıq aşağı neft qiymətlərinə öyrəşib. Rublun aşağı kursu isə Çinə və Avropa ölkələrinə neft tədarükünü artıra bilər.

## UKRAYNADA KİRİL ƏLİFBASINDAN İMTİNA ETMƏK TƏKLİF OLUNUB




İnternetdə Ukrayna dilinin kirildən latına keçməsi ideyası ilə bağlı maraqlı diskussiya vüsət almaqdadır.

Ukrayna cəmiyyəti kiril əlifbasından latın əlifbasının xeyrinə imtina etməyin mümkünlüyünü müzakirə etməlidir. "Ostannya barikada" ictimai təşkilatının başçısı və Ukrayna parlamentinin keçmiş deputatı Aleksandr Doniy belə düşünür.

Ukrayna KİV-nin məlumatına görə, o, Facebook-da daha çox İreçka kimi məşhur olan Ukrayna latın əlifbası layihələrindən birini təqdim edib.

"Siz latın əlifbasına keçməklə "rus dünyası"ndan qopmağa hazırsınızmı? Qazaxıstanın qazax əlifbasını latın əlifbasına dəyişmək təşəbbüsü "Ostannya barikada"nı bu mövzuda proqram həyata keçirmək üçün hərəkətə gətirdi. Ona görə də əgər sizin mənfi-müsbət fikiriniz varsa, söyləyin", – Doniy xahiş edir.

Xatırladaq ki, slavyan xalqlarının bir hissəsi, o cümlədən də polyaklar, slovaklar, çexlər tarixən rəsmi şəkildə latın əlifbasından istifadə edirlər.

Qazaxıstanda isə ölkə hakimiyyəti qazax əlifbasından latın əlifbasına qayıdış barədə 2012-ci ildə qərar qəbul edib. XX əsrin əvvəlində ərəb qrafikasından imtina edən türk xalqlarının çoxu, o cümlədən də qazaxlar məhz latın əlifbasından istifadə edirdilər. lakin türk xalqlarını yaxınlaşdıran ümumi latın əlifbası tezliklə Moskvanı qane etmədi və SSRİ tərkibinə daxil olan hər bir böyük türk xalqı üçün bir-birindən kəskin şəkildə fərqlənən kiril əlifbası əsasında xüsusi əlifba yaradıldı.

## 5 İLLİK MÜHARİBƏNİN SURİYAYA VURDUĞU ZİYAN AÇIQLANIB



Suriya rejiminin rəhbəri Bəşir Əsəd ölkəsində davam edən müharibənin vurduğu ziyanı açıqlayıb.

Onun sözlərinə görə, müharibənin Suriyaya vurduğu ziyan nə az, nə çox 200 milyard dollardan çox olub. Bəşir Əsəd ölkədə davam edən hərbi münaqişənin yekunlaşması üçün siyasi razılığın əldə olunması prosesini də sürətləndirəcəyini bildirib.

O, Palmiranı geri almaqla onu siyasi prosesləri gecikdirməkdə ittiham edən "beynəlxalq müxaliflər"in mövqelərinin zəiflədiyini də deyib.

Xatırladaq ki, Cenevrədə başlayan danışıqları aprel ayında davam etdirmək üçün 24 martda fasilə verilib.

# CƏHALƏTİN DÜNƏNİ VƏ BUGÜNÜ

***İslam ədəbiyyatının təsirilə dilimizə girən sözlərin əksəriyyəti əsl mənalarını qoruya bilməmiş və ya mənası dəyişmiş bir halda istifadə edilmişdir. "Övlad" (uşaqlar) dilimizdə bir tək uşağı, "istismar" (sərmayə qoymaq) isə sui-istifadə etməyi ifadə edir. Bənzər şəkildə "cahil" də mənasından böyük nisbətdə uzaqlaşmış və təhsil görməmiş, təcrübəsiz, məlumatı olmayan mənasında istifadə edilmişdir. Hərçənd 'cahillik', Quranda cahilliklə hərəkət etmək, hadisələrin içinə nüfuz edə bilməmək və daim səthi düşünmək, bu səbəbdən hər vaxt sadə və isabətsiz hökmlər vermək mənasında da istifadə edilməkdədir ki, elmin ziddi mənasında- cahilliyin məşhur mənası da budur (4/17; 6/541).***

Cahil insan bütə tapınmaqda israr edər (46/23; 6/111), möcüzə istəməklə Allahı və peyğəmbəri aciz buraxmağa çalışar. Tələ qurar, yalançıdır, qısqancdır (12/89). Şirkə dəvət edər (25/63). Allaha yalan isnad edər (2/67). Peyğəmbərlərdən insan gücünün sərhədlərini aşan fövqəladə şeylər göstərmələrini tələb edərlər (6/35). Allah haqqında pis zəndə olalar (3/154). Qövmçüdürlər (48/26). Ayrıca açılıb saçılmaq (33/33), zina etmək (12/33; 4/17) də cahili bir davranışdır. Fasiqlər cəhalət hökmünün həsrəti içində olan, cəhalət içində olan bir həyatı mənimsəyən insanlardır (5/50). İnananlar cahil olmamaq üçün, bu pis xüsusiyyətlərdən uzaq dayanmanın yanında, şirkə dəvət edənlərdən üz çevirməli (7/119), Allahdan kafirləri bağışlamasını istəməməli (11/46) və fasiqlərin gətirdikləri xəbərlərin əslini araşdırmadan qəbul edib istifadə etməməlidirlər (49/61).



Cahiliyyə sözü "İslamdan əvvəl" deyə tərcümə edilsə də, o, daha çox bu dövrü göstərir. İnsanın Allaha qul olma yerinə öz bilməzliyini təməl ölçü tutmasının ifadəsi olan cahiliyyənin həyata müdaxilə etdiyi ən konkret sahə hökm qoyma mövzusundadır. Rəbbimiz insan əlaqələrini təyin edən hökmlərin bəşəri mənşəli deyil, Rəbbani ölçülü olduğunu və vəhyi hökmləri tətbiq etmə mövzusunda qarışıqlığa düşməməmizi ifadə edərək ,bizi xəbərdar etməkdədir.

"Onlar hələ cahiliyyə hökmünümü axtarırlar? Qəti məlumatla inanan bir birlik üçün hökmü Allahdan daha gözəl olan kimdir?"

Rəbbimiz nazil olan ilk ayələrdə canlı nümunələr verərək vəhyin həmsöhbətlərini və insanları cahil tətbiqlərə qarşı xəbərdar etmişdir.

"Özünü tək olaraq yaradıb ona, ala bildiyi qədər böyük bir mal-mülk verdim. Gözü qarşısında duran uşaqlar, saysız imkan və fürsətləri önünə sərdidikcə sərdiyim o kəsi mənə burax. Daha da artırmağım üçün yenə də tamah edər. Əsla ummasın, çünki o, Bizim ayələrimizə qarşı qəti bir inadçıdır. Onu bir yoxuşa sürəcəyəm. Çünki o, düşündü və bir ölçü təsbit etdi. Qəhr olası, necə bir ölçü qoydu? Yenə qəhr olası, necə bir ölçü qoydu?" (Müddəssir 11-20)

Bu gün ətrafımıza baxdıqda bu cahil rəftarın daha da gücləndiyini görürük.

Cahiliyyə həyatında kişiyə döyüşən, qənimət gətirən qadına da istehlak edən olaraq baxılardı. Qadın olmaq utancverici bir vəziyyət idi, buna görə qız uşaqları diri-diri torpağa basdırılardı. Qadının miras haqqı yox idi. Qadın kişinin köləsi vəziyyətində idi. Qadınlara verilən "mehr"ə, alış-veriş qarşılığı olaraq baxılırdı. Mehri ata alırdı. Kişi "mehr" verdiyi təqdirdə istədiyi qədər qadın ala bilərdi. Qədim cahiliyyədə qızlar torpağa basdırılaraq öldürülərkən, müasir cahiliyyədə onun ruhunu, ərdəmini öldürərək, onu sırf bədəndən ibarət olaraq qəbul edirlər. Ərdəmli insan olmağa deyil, cazibədar, duyğuları təhrikedici olmağa zorlayırlar.

Cahiliyye kişiləri üçün ən böyük zövq içki içmək idi. Onlar üçün şərab talenin üstün hədiyyəsi idi. İstədikləri şərabı içməklə həm öyünər, həm də qürur duyardılar. Şəraba böyük pullar xərclənərdi. Abidin şeirlərindən biri o dövr ilə birlikdə, sanki müasir cəhaləti təsvir etməkdədir:

"Ayıqkən köhnəlmiş gözəl qoxulu şərabın, /Qiymətini yüksəldərik. /Və zövqünü aldığımız zaman /Hesabını tutmarıq/ Hədər olan sərvətin."

Cahillər üçün irqçiliyin nə qədər təsirli olduğuna dair bu hədis çox ibrətvericidir: Ənsar və Mühacirlərdən iki adamın döyüşü iki qrupun döyüşünə çevrilmək üzrəykən Nəbi (s.ə.s) çıxdı və: "Cahiliyyə xalqının qışqırığıyla səslənmənin səbəbi nədir?" və: "Onlara nə olmuş niyə cahiliyyə adətiylə səslənirlər," deyə soruşdu. Mühacirlərdən birinin Ənsardan birinə zarafatla vurduğunu eşidincə: "Bu cahiliyyə qışqırığını buraxın. Nəslini çağırmaq nə pis şeydir" buyurdu.

"Tiyərə", bir yolçunun səfərə çıxdıqda qarşısından keçən bir quşu xeyrə yozmamasıdır. "Həmə" Məhərrəm ayını uğursuz saymaq və bütün işlərin bu aylarda olduğu əqidəsidir. Qul, cin və şeytanlardan bir cinsdir. "Qul" tənha və kimsəsiz çöllərdə insana görünüb, çaşdırar və sonunda həlak edər. Peyğəmbər belə bir varlığın olmadığını ifadə etmişdir.

Günümüz cahiliyyəsində quşdan çox qara pişiyin insanın qarşısından keçməsi uğursuz sayılır. Qul əfsanəsi Qulyabanı adıyla günümüzə qədər gəlmiş, filmlərə mövzu olmuşdur.

Bir ölünün arxasından üst-başı parçalamaq, üzü cırmaqlamaq, yanaqları, dizləri döymək kimi cahil davranışlar bu gün də davam etməkdədir.

Kəbədə 360-a qədər büt vardı. Hər qəbilənin özünə xas bir bütü vardı. Bundan başqa hər evdə bir büt olardı, ailə fərdləri buna ibadət edərdi. Xülasə bütpərəstlik cahiliyyə ərəbinin ikinci təbiəti olmuşdu və gündəlik həyatın hər parçasında nüfuzunu icra etməkdə idi. Ərəb əqidəsinin əsası xəstəyə şəfa, uşaq dünyaya gətirmə, qıtlıq, vəba kimi bəlaları qaldırma işini başqa ilahlara təhvil verərək, dünyanın idarəsini onlarla bölməkdən ibarət idi. Cənabı Haqqın köməyinin ancaq bu bütlərdən şəfaət diləməklə əldə edilə biləcəyinə inanardılar. Ərəblər bu bütlərə səcdə edər, onların adına qurban kəsər, əkinlərinin və sürülərinin bir qisimini bunlara təsis edərdilər. İndiki vaxtda da bənzər şəkildə qəbirlərə gedib yaxınlarına dua edərək, onların qənaətilə uşaq sahibi olmaq İstənməkdədir. Ayrıca bəzi şeyxlərin nəfəslərindən şəfa ümid edilməkdə, diri və ya ölü olsun şəfaətlərinə sığınılmaqdadır. Quranda Uca Rəbbimiz şəfaəti ancaq icazə verilənlərin edə biləcəyini və səlahiyyəti yalnız özünə xas etdiyini ifadə edərkən, dünyada ikən bəzi əfəndi və ya şeyxlərə bu mövqe verilmişdir. Bu səhv anlayış İslami seqmentə xitab edən kitab, jurnal, radio və televiziyaların böyük bir qismi tərəfindən davam etdirilməkdə və yayılmaqdadır.

İslam dininin hədəfi insanın dünyaya, nemətlərə olan dünyagörüşünü dəyişdirməkdir. İslam hər şeyi deyil, vəhyə müxalif olan fikir və hərəkətləri dəyişdirməyə, islah etməyə çalışır. Çünki, İslam insanın təcrübəsini sıfırlamaz. İslam, cahiliyyə zamanındakı mehri ləğv etməmiş, ancaq mehrin qadının haqqı olduğunu ifadə etmişdir və verilən mehrin geri alınmamasını istəmişdir. Çox qadınla evliliyi ləğv etməmiş, lakin dördə qədər evliliyi şərtə bağlayaraq, birini almağı tövsiyə etmişdir (Nisa 3).

***Hz. Peyğəmbər cahiliyyə dövründə var olan Hənif dinindən qalma bəzi ibadətləri də davam etdirdi. Minada şeytan daşlama, Kəbə ətrafını təvaf etmə, təvaf sayını Həcərül-Əsvədə görə nizamlama, Səfa və Mərvə arasında gedib gəlmə, rifadə (hacıları qonaqlama) və sikayə (hacılara su paylama) kimi həccin əsas varlıqlarını qorudu. Cahiliyyədə dəyər verilən qonaqpərvərlik, azadlıq eşqi, cəsarət və mərdlik kimi dəyərləri İslam da fəzilət saydı. Cahiliyyə dövründə var olan hər şeyə qarşı çıxılmamış, nəyin doğru, nəyin səhv olduğu vəhy süzgəcindən keçirilərək təyin olunmuşdur.***

Hacı BƏKİROĞLU

# AVROPA KOMİSSİYASI GÜRCÜSTAN PATRİARXI II İLYANI QINAYIB

Avropa komissiyasının martın 1-də dərc olunmuş irqçilik və dözülməzlik üzrə məruzəsində Bütün Gürcüstanın Katalikos-Patriarxı II İlya "nifrət dili"ndən istifadə etdiyinə görə günahlandırılıb.



Məruzənin 37-ci bəndində qeyd olunur: "Gürcüstan Patriarxı nifrət dilində danışır, belə ki, o, LQBT-nin (cinsi azlıqların) tədbirlərini "gürcü xalqının təhqir olunması", homoseksualizmi isə "xəstəlik" adlandırıb".

Məruzədə həmçinin deyilir: "Gürcüstanda etnik və dini azlıqlara, eləcə də LQBT-yə münasibətdə nifrət dili əvvəlki kimi yayılmış problemlərdən biridir. Bu qrupların nümayəndələrinin üzərinə hücumlar və onların sıxışdırılması həyacanlı tezliklərlə baş verir".

Xatırladaq ki, Patriarx İlya artıq neçə illərdir ki, Gürcüstanın daha çox etibar etdiyi şəxsdir.

# DAUN SİNDROMLU UŞAQLAR GÜRCÜSTAN MƏKTƏBLƏRİNDƏ TƏHSİL ALA BİLƏRLƏR

Gürcüstanın təhsil və elm naziri Tamar Sanikidze martın 21-də məktəblərin müdiriyyətini və pedaqoqları təhsil prosesində Daun sindromlu uşaqları dəstəkləməyə çağırıb.

"Mən və mənim dostum" tədbiri Ümumdünya Daun sindromlu adamlar günü münasibətilə Gürcüstan təhsil idarəsində keçirilib. Bu gün BMT-nın himayəsi altında martın 21-də keçirilir. Qəbulda Daun sindromlu uşaqları Dövlət Pantomima Teatrının aktyorları əyləndirmişlər.

"Bu gün məktəblərin hər cür imkanları, vəsaitləri, bu uşaqlara fərdi təhsil planı əsasında xidmət göstərən xüsusi hazırlanmış pedaqoqları var", – Sanikidze deyib. Nazir həm də valideynlərdən xahiş edib ki, "günəşli uşaqlar"ı yaşıdları ilə təmas qura bilmələri, təhsil almaları və cəmiyyətə qovuşmaları üçün məktəblərə aparsınlar.

"Qızımın 9 yaşı var. O, adi orta məktəbə gedir. Mən uşaqlar tanıyıram ki, heç vaxt məktəbə getməyiblər, çünki onları qəbul etməkdən imtina edirlər. Bu gün Daun sindromlu uşaqları qəbul edirlər, onalar məktəbi çox sevirlər. Misal üçün, biz dərsləri heç vaxt buraxmırıq", – Manana Kandelakinin valideyni bildirib.

Hazırda Gürcüstanın məktəblərində yüzdən çox Daun sindromlu uşaq təhsil alır.

Gürcüstanda 2013-cü ildən etibarən xüsusi təhsilə ehtiyacı olanlar peşəkar təhsil proqramlarına qeyd olunub, arzuladıqları ixtisasa yiyələnə bilərlər. Dünyanın bütün bölgələrində yayılmış Daun sindromu anadan gəlmə gen patologiyasının təbii inkişaf formalarından biridir.

# TBİLİSİDƏ MARŞURUT AVTOBUSLAR PULSUZ Wİ-Fİ İLƏ TƏCHİZ OLUNDU

Tbilisidəki marşurut avtobuslarda pulsuz, naqilsiz internet işləməyə başlayıb.

Layihə WiFisher şirkəti tərəfindən həyata keçirilir. Layihəni "Tbilisi mikroavtobusu" dəstəkləyir.

Hazırda iki marşurut üzrə hərəkət edən və FREE Wi-Fi stikerləri ilə təmin edilmiş mikroavtobuslar internetə bağlana bilir. Lakin gələcəkdə onların sayı artacaq.

Bu xidmət artıq iki həftəyə yaxındır ki, fəaliyyət göstərir. Bu müddət ərzində artıq bir neçə yüz sərnişin pulsuz internetdən yararlana bilib.

# GÜRCÜSTANDA ƏN AŞAĞI ƏMƏK HAQQI MAARİF SAHƏSİNDƏDİR

Gürcüstanda ən aşağı əmək haqqı maarif sahəsindədir. Gürcüstan Milli statistika idarəsinin məlumatına görə, 2015-ci ilin dördüncü kvartalında maarif sahəsində orta əmək haqqı 625 lari təşkil edib. Bu sahədə çalışanların 70%-dən çoxu dövlət təhsil müəssisələrində çalışır, özəl sektor isə 22 min adamı işlə təmin edib.

Gürcüstanda cəmi 67 394 pedaqoq var. Onlardan 88%-i məktəblərdə çalışır, onların da 85%-ini qadınlar təşkil edirlər. 2015-ci ilin məlumatlarına görə, pedaqoqlar 553 994 şagirdə dərs deyirlər ki, bu da ölkədə hər 0,12 şagirdə bir müəllimin düşməsi deməkdir. Gürcüstanda ən yüksək əmək haqqı maliyyə sahəsində qeydə alınıb. Bu sahədə orta aylıq əmək haqqı 1549 lari olub.

# GGÜRCÜSTAN DTX ÇİNOVNİKLƏRİN CİNAYƏTLƏRİNƏ DAİR 142 İŞİ TƏHQİQ EDİR

Gürcüstan Dövlət Təhlükəsizlik xidmətinin antikorrupsiya agentliyi çinovniklərin cinayəti və fırıldaqçılıq faktları üzrə 142 işi təhqiq edir. Bu barədə DTX-nin hesabatında bildirilib.

Dövlət təhlükəsizlik xidməti 2015-ci ilin 1 avqustundan fəaliyyətə başlayıb. Bu vaxta qədər həmin qurum Gürcüstan DİN-nin bir hissəsi idi.

"DTX-nin yaranmasından 2015-ci ilin 31 dekabrınadək 29 cinayət işi üzrə, o cümlədən də 14 rüşvətxorluq, 5 fırıldaqçılıq, 3 mənimsəmə və ya israfçılıq, 2 kommersiya satın alması, 2 xidməti səhlənkarlıq və 1 vəzifə səlahiyyətlərindən sui-istifadə faktı üzrə istintaq başlanmışdır. 16 nəfər saxlanılıb. Hal-hazırda antikorrupsiya agentliyinin icraatında 142 cinayət işi var", – hesabatda deyilir.

Bununla belə hesabatda qeyd olunur ki, DTX korrupsiya ilə mübarizəyə xüsusi diqqət yetirir.

Korrupsiya ictimai sahənin normal fəaliyyətinə mane olur, cəmiyyətin dövlət təsisatlarına inamını zəiflədir, ölkənin stabil və demokratik inkişafına əngəl yaradır. Hesabatda qeyd edilir ki, məhz buna görə korrupsiya ilə mübarizə dövlət təhlükəsizliyi məsələsidir.

# DTX 2015-Cİ İLDƏ 1014 NƏFƏRİ ARZUOLUNMAZ ŞƏXS ELAN EDİB

Gürcüstanın əks kəşfiyyatı 1286 nəfərə sərhəd nəzarəti qoyub, 1014 nəfərin isə ölkəyə girişinə qadağa qoyulub.

Bu barədə DTX-nin müavini Levan İzoriya 2015-ci il üzrə parlament komitəsindəki fəaliyyəti haqqında məruzəsində qeyd edib. İzoriyanın məlumatına görə, 40 Gürcüstan vətəndaşının münaqişə zonalarına yola düşmək cəhdinin qarşısı alınıb.

"Gürcüstan üçün öz ərazisində istənilən terror hərəkətini önləyərək, qarşısını almaq həyati əhəmiyyət kəsb edir. Belə ki, bundan ayrı-ayrı dövlətlər öz hərbi və siyasi məqsədləri üçün istifadə edə bilərlər", – Dövlət Təhlükəsizlik Xidmətinin məruzəsində deyilir.

# TƏBİƏTİN ÖVLADLARI
## (II hissə)

"İlk simfoniya" poemasında Əli Kərim ecazkar təbiət lövhələri yaradır:

*Damcı qaçdı damcıdan*
*Damcı onu haqladı,*
*Damcı onu bircə an*
*Sanki göydə saxladı.*

Yağış yağarkən yarpaqlardan süzülən su damcılarını şair necə də ecazkar bir şəkildə təsvir etmişdir. Şair "şıltaqlıq" edən damcıların rəqsini təsvir edir. Adi bir damcının dağ döşündə qalan qarın əriməsindən yarpağa, nəhayət, torpağa düşməsini bir ömür yolu kimi izləyirik. Bir damcının səyahəti şairin ətirli poeziyasının özünəməxsus tapıntısıdır.

Qayaları fikrə salan, dağdan dağa atlanan nəğmələri dinləyən oğlanın sirli dərdi nəğmədə xallar olur. "Sirli dərdin nəğmədə xallara" çevrilməsi İlhamda ilahi verginin olduğunu göstərən əlamətdir. Bu ilahi vergini Bakıda qonaq olduqları vaxt onlara gələn Eyvaz kəşf edir. Üzeyir bəy məktəbi keçmiş bir professor – musiqişünas Eyvazın məsləhətindən sonra ata-anasını erkən yaşlarında itirmiş İlhamı xalası musiqi məktəbinə qoyur. Musiqi məktəbini əla qiymətlərlə bitirən İlham xalası ilə Bakıya köçür. Xalası professor qohumunun yanına getməyi məsləhət görəndə İlham qışqıraraq deyir: "Getmərəm, and içirəm xalamın da canına. Heç kimə yalvarmaram, imtahan da verərəm. Konservatoriyaya öz gücümə girərəm".

Mətinlik, sözübütövlük, öz gücünə inam, vüqarlılıq, mərdlik, seçdiyi yoldan dönməmək, şöhrətə aludə olmamaq, təmizlik, eşqə sədaqət İlhama xas olan əsas əlamətlərdir. İlham konservatoriyaya – professora imtahan verib özünü tanıtmadan qəbul olur. Professor xəyala dalır, balaca İlhamla olan söhbətini yada salır, ancaq onu tanımır. Biz qoca professorun istedadlı gənclərə qayğısını hiss edirik. O, xalq içində yaxşı oxuyan, çalan musiqiçilərin çox olduğunu söyləyir.

İlhamın ilham pərisi Nigardır. Musiqinin incə ritmləri onun qəlbində Nigar sevgisi ilə bəstələnir. İlhamla Nigar iki bədəndə bir ruh olub dünyaya eyni pəncərədən baxırlar. Ancaq onların xoşbəxt həyatlarına qara bir kölgə düşür. Bu qara kölgə iblis xislətli obraz olan Azaddır. Əli Kərim Azadın adını çəkdiyi ilk misralarla onun boş və mənasız yaradıcılıq yolundan bizə xəbər verir. Nigarın istəyi ilə Azad kimi yazan İlham düşünür ki, ürəyini dinləməyib yolunu azır, çünki yaratdığı nəğmə ürəyinin dərinliklərinə baş vurmur, gəldi-gedər hisslərdən söz açır. Deməli, Azad kimi yazmaq İlhamın düşüncələrini dolaşdırmışdır. Professorun həqiqi musiqi haqqındakı sözləri Əli Kərimin həqiqi poeziya haqqındakı düşüncələri kimi səslənir. İlhamın bəstələdiyi "Bir damcı" əsərini məhəbbət alovu, xalq ruhu adlandırır. "Budur arzu, budur dilək, budur ideal" – deyə professor İlhama sənətin əsl yolunun xalq ruhundan başladığını söyləyir.

"İlk simfoniya" poemasında şöhrətbaz zümrənin nümayəndəsi dayaz sənətkar Azadın söhbətlərindən məlum olur ki, Azadın insanı heyran edən, haldan-hala sala bilən nəğmə yaratmaq iqtidarı yoxdur, onun eyş-işrətə səsləyən sənəti saf məhəbbətə yaddır.

İlham Azadın sənətinin eyş-işrətə səslədiyini, şirin təriflərin onu yoldan çıxardığını söyləyir. İlham yaradıcılıq baxımından Azadı özünə rəqib hesab etmir, çünki onun yaradıcılığını ciddi qəbul etmir. Əli Azad obrazını bir rənglə, yalnız qara rənglə, qara boyalarla təqdim etmir. Belə ki, o, adi adam deyildir, onun heç də kiçik olmayan dinləyici auditoriyası, onların sırasında konservatoriya təhsilli ifaçılar da vardır. Onlar iclasda Azadın tərəfində durub onu və onun sənətini dəstəkləyirlər. Ancaq İlham sonuna qədər mübarizə aparır, əqidəsindən dönmür. Azad qeyd edir ki, könüldən gələn səsi ancaq sənətkar duya bilir, sənətkar üçün sükutdan da səs gəlir. Ancaq Azadın yazdığı səsləri hamı eşidir. Əli Kərimin musiqi sənəti üçün dedikləri bədii ədəbiyyat üçün də eyni dərəcədə vacibdir. Musiqişünas da, yazıçı, şair də sükutun səsini belə dinləməyi bacarmalıdır.

"Xalqın nəğməsindən istifadə" adlı müşavirədə xalq ruhu ilə qidalanan yaradıcılıq çeşməsi ilə cılı istəklərin, alçaq ehtiraslarının zövqünü oxşayacaq bir ahənglə mahnı bəstələyən Azad və onun kimilərinin yaradıcılıq yolları qarşı-qarşıya qoyulur, sənət uğrunda mübahisələr aparılır. Azadın "Ay canım, bilirsən heç nədir muğam?", – sualına muğamın sirlərinə dərindən yiyələnən İlham cavab verir. İlhamın cavabı Ə.Kərimin musiqi sənəti haqqındakı düşüncələridir. Musiqi elminə bələd olan Ə.Kərim "İlk simfoniya" poemasında müasirlərini xalq nəğməsindən istifadə etməyə, göy kimi, yer kimi dərin olan bu dəryanın dərinliklərinə baş vurmağa, incilər seçib dünyaya səs salmağa çağırır:

*Muğam elə dərin bir dəryadır ki,*
*Muğamdan min dəfə söz salmaq olar.*
*O elə qəribə bir mənadır ki,*
*Onunla dünyaya səs salmaq olar.*

Ə.Kərim klassik Azərbaycan ədəbiyyatını da dərindən bilirdi. Onun sənət haqqındakı görüşləri dahi Azərbaycan şairi Nizami Gəncəvinin görüşləri ilə üst-üstə düşür. Mehdi Hüseyn Nizaminin bu misralarını "Abşeron" romanı üçün epiqraf seçmişdir:

*Belədir əzəldən insan xilqəti:*
*Hər vaxt axtarışdır onun sənəti.*
*Kimisi axtarır sonsuz dənizlər,*
*Kimisi dənizin dibində gövhər.*

Əli Kərim isə "İlk simfoniya" poemasında yazır:

*Kimi bu dəryanın üzündən keçir,*
*Kimi də baş vurur incilər seçir,*
*Çırpınır illərlə inci seçənlər.*
*Amma bu dəryanı üzdən keçənlər*
*Köpüklə doldurub ağzını üzdən,*
*Deyir ki, ən gözəl sənətkaram mən.*

Ə.Kərimə görə, gözəl sənət əsərləri inci kimi qiymətli olur, ancaq mənasız əsərlər köpük kimi boş olur. Azad kimilər isə inci yaratmaq əvəzinə, "kəfi" xörək yerinə dinləyicilərə yedirirlər. Onların yaratdıqları əsərlərdə dərinlik yoxdur, nəğmələrin meydanı dardır, dinləyicilər sənətkarın qəlbini duymur, çünki sənətkar qəlbi ilə danışmır, dinləyicilərin qəlbinə yol tapa bilmir. Belə nəğmələr Ü.Hacıbəyovun nəğmələri kimi insanın özünü özündən alıb uzaqlara aparmır, dar gündə ürək sirdaşı olmur. Ə.Kərim bilirdi ki, musiqi də bədii ədəbiyyat kimi ürəyin həkimidir, mənəvi dayaqdır. Əli Kərim bütün bunları təbiətin övladı-qəhrəman İlhamın nitqi ilə müasirlərinə çatdırır.

Jalə LOĞMANQIZI,
Nəzəli ictimai məktəbinin müəllimi

## USTAD AŞIQ MƏHƏMMƏD SADAXLI VƏFAT ETDİ



Martın 25-də görkəmli aşıq, ustad sənətkar Məhəmməd Sadaxlı vəfat edib.

Aşıq Məhəmməd Sadaxlı 1930-cu ildə Marneuli rayonunun Mollaoğlu kəndində anadan olub.

Əvvəllər Borçalının məşhur aşığı Xındı Məmməd ilə birgə çıxış edən Məhəmməd Sadaxlı ustad sənətkardan klassik aşıq sənətinin sirlərini öyrənib. Sonra o, aşıq Hüseyn Saraclı ilə Azərbaycan xalq dastanlarını el məclislərində yüksək sənətkarlıqla ifa edib. Hər iki aşığın ifa etdikləri dastanlar Azərbaycan radio və televiziyasının qızıl fondunda saxlanılır. Aşıq Məhəmməd Sadaxlı çox sayda gəncə aşıqlıq sənətini sevdirib, onlara klassik aşıq havalarını öyrədib.

Aşıq Məhəmməd Sadaxlı Azərbaycan folklorunu, xüsusilə dastanlarımızın bilicisi idi. Onun məşhur dastan ifaları folklorşünas alimlərimiz tərəfindən lentə yazılıb. O, dəfələrlə Türkiyəyə səfər edib, aşıq sənətini təbliğ edib. Aşıq Məhəmməd Sadaxlı, həmçinin məzmunlu qoşmalar müəllifi kimi tanınırdı. Onun nəşr olunan şerləri oxucuların rəğbətini qazanıb.

Aşığın Gürcüstanda 80 və 85 illik yubileyləri keçirilib. Məhəmməd Sadaxlı "Şərəf" ordeni ilə təltif edilib.

## YAZIÇI MAQSUD İBRAHİMBƏYOV VƏFAT ETDİ



Xalq yazıçısı Maqsud İbrahimbəyov vəfat edib.

Qeyd edək ki, yazıçı, nasir, kinodramaturq, rejissor Maqsud İbrahimbəyov 1935-ci il mayın 11-də Bakı şəhərində ziyalı ailəsində anadan olub. Bakıda orta məktəbi bitirdikdən sonra Azərbaycan Politexnik İnstitutunun inşaat fakültəsində təhsil alıb (1955-1960). İnstitutun çoxtirajlı "Politexnik" qəzetində ştatdankənar müxbir kimi çalışıb. Azərbaycan Tikinti Nazirliyinin ağır sənaye inşaatı trestində mühəndis (1960-1962), Moskva Ali ssenaristlər kursunda müdavim (1962-1964), Mərkəzi Televiziya və Radio Verilişləri Komitəsinin Azərbaycan üzrə xüsusi müxbiri (1964-1971), Moskva Ali rejissorluq kurslarında müdavim (1971-1973) olub.

1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, Azərbaycan Dövlət mükafatı laureatı (1976), Azərbaycan SSR Əməkdar İncəsənət xadimi (1979), Azərbaycan Respublikasının xalq yazıçısı (1998), Azərbaycan Respublikası Sülh Komitəsinin sədri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı (1995, 2000, 2005), Azərbaycan Respublikası Əsilzadələr Məclisinin sədri, Luiziana (ABŞ) ştatının Fəxri senatoru, Minneapolis şəhərinin (ABŞ) Fəxri vətəndaşı, Azərbaycan Respublikası PEN klubunun prezidenti olan Maqsud İbrahimbəyov "Şöhrət" və "İstiqlal" ordenləri ilə təltif olunub. Xalq yazıçısı Rüstəm İbrahimbəyovun qardaşıdır.

"Mezozoy əhvalatı", "Bayquş gəlmədi", "Yay tətili", "Bütün yaxşılıqlar üçün - ölüm!", "Truskavetsə kim gedir?", "Sən nəğməmsən mənim", "Ona görə ki, mən Ayvar Lidakam" ssenariləri əsasında filmlər çəkilib.

"Qəza", "Bir az da sevinc", "Eşitmədiyim mahnı", "Qoy o bizimlə qalsın" və s. adlı kitabları Moskva nəşriyyatlarında kütləvi tirajla buraxılıb. Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

## GÜRCÜSTANDA DAHA BİR PARTİYA HAKİM KOALİSİYANI TƏRK EDİR

"Gürcü arzusu" hakim koalisiyasına daxil olan Respublika partiyası ölkə parlamentinə oktyabrda keçiriləcək seçkilərdə müstəqil olaraq iştirak edəcək.

Seçkilərdə müstəqil iştirak barədə qərarı respublikaçıların Milli komitəsi qəbul edib. SSRİ dövründə 70-ci illərdə gizli şəkildə yaranmış bu partiya Qərb meylli mövqeyi ilə seçilir.

2012-ci il parlament seçkilərində qələbə çalan koalisiya altı partiyadan təşkil olunmuşdu.

İki il əvvəl onu "Azad demokratlar" tərk etdilər. Bu partiyanın nümayəndələri hökumətdə müdafiə və xarici işlər, eləcə də Avropa və Avroatlantikya inteqrasiya məsələri üzrə dövlət naziri postunu tuturdular.

Keçmiş müdafiə naziri İrakli Alasaniyanın "Azad demokratlar" partiyası hazırda müxalifət mövqeyindədir.

Respublikaçılara gəlincə, onlar hökumətdə müdafiə və ekologiya, habelə barışıq məsələləri üzrə dövlət naziri postlarına malikdirlər. Güman olunur ki, onlar parlament seçkilərindək koalisiyada qalacaqlar. Respublikaçı deputat Fridon Sakvarelidze bəyan edib ki, partiya üzvlərinin hökumətdən çıxma məsələsinə baxmayıb.

# GÜRCÜSTANIN İLLÜSTRASİYALAŞDIRILMIŞ TARİXİ

**Gürcüstan tarixinin bu vizual yenidənqurulması əsas hadisələri, mühüm faktları, nə vaxtsa real olaraq baş verən olayları ayrı-ayrı kitab şəklində ayırsa da, bir böyük, əsas silsilə olaraq birləşdirir. Bu kitablar bütün yaşda olan oxuculara, ailənin bütün üzvlərinə məxsusdur – kiçik nəsildən tutmuş böyük nəslə qədər... tanış olduğu vaxtdan – yada saldığı vaxta qədər...**



İllüstrasiyalaşdırılmış tarixin bu çoxcildliyi konkret dövrlərin tədqiqatçı-tarixçilərinin nəql etdikləridir və dəstxətti ilə, üslubu ilə bir-birindən tamamilə fərqlənən rəssamlar tərəfindən illustrasiyalaşdırılmışdır. Nəşr üçün sənədli materiala istinad edərək, hər bir dövrün döyüş, dünyəvi və kilsə geyimləri, xəritələr və sair yaradılıb.

Bütün təsivr olunan hadisə, epizod, cizgi, nadir muzey eksponatı, foto və freska təqdim olunan materiala sənədli dəqiqlik verir. Silsilə üçün xüsusi olaraq Gürcüstan Milli Muzeyinin, Gürcüstan Dövlət Teatr, Musiqi və Xoreqarafiya arxivinin, Gürcüstan Parlamenti Milli Kitabxanasının, Gürcüstan Əlyazmaları Milli Mərkəzinin arxivlərindən verilən muzey eksponatlarının siyahısı tərtib olunub.

Kitabların bu silsiləsinin yaradılması üçün alimlərin, rəssmamların, filoloqların, istərsə də texniki personalın böyük dəstəsi 3 il ərzində yorulmadan çalışmış və indi də çalışmaqdadır...

Tarix xronoloji ardıcıllıqla toxunur, bu mürəkkəb naxışdır, bir-birilə görünməz iplərlə bağlıdır.

Buna görə də sözügedən silsilə bir-birinə bağlı fərqli mövzuları əhatə edir və Gürcüstanın salnaməsini yaradır. Hər bir cild bu salnamənin fərqli səhifəsidir. Bu baxımdan bütün cildlər bir-birini tamamlayır. Onların hər biri öz incəliyi ilə əhəmiyyətlidir...

Bu silsilə 24 cilddən ibarət olacaq. İndiyədək çıxan cildlərin bəzilərində Azərbaycan mövzusuna da yer ayrılmışdır. Artıq on beşinci cild bu günlərdə işıq üzü görmüşdür. Bu cild "Luarsab və Svimon" mövzusuna həsr olunmuşdur.

Girişdə XV əsrin əvvəllərində vahid gürcü monarxiyasının öz mövcudluğunu dayandırması, ölkənin Kartli, İmereti və Kaxeti çarlığına bölünməsi və bu çarlıqlarda yenə də Baqrationilər çarlıq sarayının bölünmüş şaxələri barədə məlumat vardır. "Gürcüstan və ətraf aləm" başlığı altında verilən yazıda dağılan və parça-parça bölünən "Gürcüstanlar"ı XVI əsrin başlanğıcında İran Səfəvilər dövləti və Osmanlı imperiyası simasında çox böyük təhlükənin gözləməsi, bütün əsr boyu Cənub Qafqazda hökmranlıq uğrunda bu iki güclü dövlət arasında müharibələrin davam etməsi, bütün XVI əsr ərzində bitib tükənməyən İran-Osmanlı müharibələri nəticəsində Kartlinin və Samsxe atəbəyliyinin cəbhə xəttinə çevrilməsi və sair barədə məlumat öz əksini tapıb.

"İran və Osmanlı imperiyaları" başlığı altında belə bir material verilib:

***İran Səfəvilər dövləti***

XV əsrin sonunda Ağqoyunlu türkmən sülaləsinin nümayəndələri arasınbda taxt-tac uğrunda mübarizə başladı. Bu fonda Ağqoyunlu taxtı iddiaçılarını üst-üstə məğlubiyyətə uğradan Ərdəbil şeyxlərinin törəməsi İsmayıl irəli çəkildi. O,150-ci ildə təntənəli şəkildə Təbrizə daxil oldu və özünü şahənşah elan etdi. İsmayıl yeni sülalənin əsasını qoydu ki, bu da İsmayılın babası Şeyx Şəfinin adına uyğun olaraq Səfəvilər adlandırılır. Səfəvilər İslamın şiə məzhəbinin davamçıları idilər və Azərbaycanın türk tayfaları arasında xüsusi nüfuza malik idilər. Səfəvilərin tərəfdarları şiələrin 12 imamının xatirəsinin əlaməti olaraq12 qatdan ibarət qırmızı çalma örtürdülər ki, buna görə də onları qızılbaşlar adlandırırdılar. Şah İsmayıl şiəliyi İranın rəsmi dini elan etdi və dini əlamət ilə kəskin şəkildə sünni Osmanlıya qarşı çıxdı.

***Osmanlı imperiyası***

XVI əsrin başlanğıcında o dövrdə dünyanın ən güclü və qüdrətli dövləti olan Osmanlı imperiyası Gürcüstanın cənub-qərbində onunla həmsərhəd idi. Onun ərazisi qonşu dövlətlərin torpaqlarının zəbt olunması hesabına sürətlə genişlənirdi. Osmanlının ən yaxşı silahlanmış və nizami ordusu məğlubedilməz ada malik idi".

***Şah İsmayıl***

Salnaməçilər Şah İsmayılı (1501-1524) istedadı sərkərdə, ən yaxşı ovçu, şair, kaliqraf və musiqiçi kimi xatırlayırlar. O, Azərbaycan ədəbiyyatının klassiki olaraq tanınıb. Şah İsmayılın dövründə İranının qızılbaş dövlətinin hüdudları daxilinə Azərbaycan, İraq, İran, Kirman, Xorasan, Xuzistan, Əfqanıstan, Orta Asiya daxil idi.

***I Səlim Yavuz***

Səlimin (1512-1530) səkkiz illik hökmranlığı dövründə Osmanlı imperiyası Suriyanı, Fələstini, Yerusəlimi, Şimali Ərəbistanı, müsəlmanların müqəddəs şəhərləri olan Məkkə və Mədinəni, Misiri, Əlcəzairi özünə tabe etdi. Venesiyaının üzərinə xərac qoydu. Yaxın Şərq və Qafqazda Səlimin və İsmayılın mənafeləri kəskin şəkildə toqquşdu. Bu iki müsəlman imperiyasının düşmənçiliyinin özünü kəskin şəkildə büruzə verən dini motivi var idi. Səlim sünni məzhəbini imperiyanın rəsmi dini olaraq bəyan etdi. Onun əmri ilə Osmanlıda yaşayan 40 min şiənin başı vurulub ki, bu da şiə İranı açıq-aşkar müharibəyə çağırmaq idi.

***İran-Osmanlı arasınlda ilk müharibə***

1514-cü ildə İran Səfəvilər dövləti ilə Osmanlı arasında uzun çəkən müharibə başladı ki, buna da gürcü ölkələri də qatıldı. Bu müharibə qısa fasilələrlə 1555-ci ilədək davam etdi. Onun nəticələri Gürcüstana ağır ziyan yetirdi.

1514-cü ildə Şərqi Anadoluda Çaldıran düzündə baş verən elə ilk döyüşdə Osmanlıların hərbi üstünlüyü özünü büruzə verdi. Yaxşı təlim almış, nizam-intizamlı, tüfənglər və hərbi toplarla təchiz olunan Osmanlı ordusuna qızılbaşların qoşunu kifayət qədər müqavimət göstərə bilimirdi. Döyüşün taleyini Osmanlı artilleriyası həll etdi. O, qızılbaşların süvari qoşununa dağıdıcı zərbə endirdi. Çaldıran döyüşündən sonra I Səlim İranın paytaxtı Təbrizə daxil oldu. Lakin qələbədən uzun müddət istifadə edə bilmədi, çünki qızılbaşlar Osmanlı ordusunda aclığın baş verməsi üçün geri çəkilərkən hər şeyi məhv edirdilər. Ərzaq ehtiyatının azalması və soyuq qış qorxusu Səlimi geri qayıtmağa məcbur etdi.

1515-ci ildə qarşı-qarşıya duranlar müvəqqəti saziş bağladılar. Növbəti illərdə osmanlıların əsas qüvvəsi Suriya-Misir istiqamətinə çıxarılmışdı ki, bu da Şah İsmayıla Şərqi Anadoluda itirdiyi torpaqları ger qaytarmağa və Şərqi Qafqazda qədəmlərini möhkəm basmağa imkan verdi.

***Şah İsmayıl Kartlidə***

İşğalçılar ilə mübarizənin əsas ağırlığı Kartli çarlığının çiyinlərinə düşdü. Deməк olar ki, bütün əsr ərzində cüzi fasilələrlə Kartli 50-yə qədər böyük və kiçik döyüşə qoşulmalı oldu. Bu qeyri-mütənasüb, lakin qəhrəmanlıq döyüşlərinin başında Kartli çarları – ata-oğul Luarsab və Svimon dururdu.



**"Çar X David" başlığı altında 1505-1525-ci illərdə II Konstantinenin oğlu X Davidin Kartli çarlığının başında durması, ilk dəfə Şah İsmayılın 1518-ci ildə Kartli sərhədlərinə yaxınlaşması, lakin X Davidin müharibədən boyun qaçırması və öz oğlunu girov verməsi və saziş bağlanmasını xahiş etməsi, hər il 300 at yükü ipək xərac verməyə boyun olması və başqa məsələlər barədə məlumatlar vardır. Elə burada iki-üç ildən sonra İrana xərac verən ölkə olaraq Kartliyə osmanlıların talançı ordusunun soxulması, bu zaman çar Davidin Kaxetidə işləri buraxıb Kartliyə qayıtmağa məcbur olması və Osmanlı ilə mubarizəyə qalxması qeyd edilir.**

Mirzə MƏMMƏDOĞLU

(Davamı gələn sayımızda)

## İLK GÜRCÜ QƏZETİ 21 MART 1819-CU İL TARİXİNDƏ NƏŞR OLUNUB

İlk gürcü qəzeti 21 mart 1819-cu il tarixində (köhnə stillə 8 martda) işıq üzü görüb.

Həmin dövrdə Gürcüstan Rusiya imperiyasının tərkibinə daxil idi. Hakimiyyət dövlətin fərman və sərəncamlarını yerli əhaliyə çatdırmaq istəyirdi.

"Gürcüstan qəzeti" Rusiya ordusunun qərargahında rus dilində çap edildikdən sonra, gürcü dilinə tərcümə olunurdu.

Gürcü dilində qəzet nəşr etmək qərarı ondan yaranmışdır ki, həmin dövrdə beynəlmiləl Tbilisinin sakinləri gürcü dilini rus dilinə nisbətən daha yaxşı bilirdilər.

Qəzet hökumətin məlumatlarını yayan vasitəyə çevirildi. Qəzetdə həmçinin çar ailəsi, siyasət haqqında yeniliklər, eləcə də rus yazıçılarının əsərləri çap olunurdu.

Qəzet cəmi üç il fəaliyyət göstərdi.

Bu qəzetin nəşri gürcü jurnalistikasının formalaşması üçün təməl çevrildi. Məhz buna görə, 1993-cü il martın 21-dən Gürcüstanda gürcü jurnalistikası günü qeyd edilir.

## "THE İNDEPENDENT" QƏZETİ ÇAPINI DAYANDIRDI

Britaniyanın "The Independent" qəzetinin sonuncu dəfə kağız versiyası ilə işıq üzü görüb. Qəzet rusiyalı iş adamı Aleksandr Lebedevə məxsusdur.

Bundan sonra qəzetin yalnız onlayn versiyası mövcud olacaq. Qəzet 1995-ci ildən bu günə qədər ilk dəfədir ki, kağız versiyasını bağlayaraq, tam internet rejiminə keçib. Bunun əsas səbəbi isə maliyyə çətinlikləri ilə bağlıdır.

Qəzet 1990-cı illərin əvvəlində də ciddi maliyyə problemləri ilə üzləşmişdi. Qəzetin tirajı 2009-cu ildə 184 min nüsxəyə düşmüşdü. A.Lebedev 2010-ci ildə nəşri nominal qiymətə – 1 funt sterlinqə alsa da, qəzet yenə də populyarlığını itirməkdə davam etmişdi. Ötən il isə onun gündəlik tirajı 58 min nüsxədən aşağı düşüb.

"The İndependent"in kağız versiyasının buraxılmasını dayandırmaq niyyəti bu ilin fevralında məlum olub. Həmin vaxt bildirilib ki, Lebedev və onun oğlu qəzeti satmaq qərarına gəliblər.

"The İndependent" gündəlik qəzeti 1986-ci ildə yaradılıb və 1990-cı ildə tirajı 400 min nüsxəyə çatıb.

## BATUMİDƏ BEYNƏLXALQ UNİVERSİTET XƏSTƏXANASI AÇILIB

Batumi Beynəlxalq Universitet Xəstəxanası (International University Hospital Batumi) 16 mart tarixində Gürcüstanın baş naziri Giorgi Kvirikaşvilinin də qatıldığı təntənəli mərasimlə açılmışdır. Tədbirdə çıxış edən baş nazir Kvirikaşvili Gürcistanda səhiyyə sahəsinə önəmli bir töhfə verəcək bu xəstxananın Türkiyə-Gürcüstan əlaqələrinin inkişafına da mühüm töhfə verəcəyini bəyan etmişdir.

Mərasimdə iştirak edən Türkiyənin Gürcüstandakı səfiri Ləvənt Gümrükçü isə öz çıxışında xəstəxananin başa gəlməsində əməyi keçən hər kəsə təşəkkür edərək, keçən il Bahçeşehir Üniversiteti tərəfindən Batumidə açılan üniversitetlə təhsil sahəsində yaradılan əlaqənin indi, yenə də türk sərmayədərləri sayəsində bu dəfə səhiyyə sahəsində davam etdirildiyini ve bununla da Gürcüstanın və Türkiyə-Gürcüstan əlaqələrinin gələcəyinə dəyərli bir sərmayə qoyulduğunu ifadə etmişdir.

HAQQIN SÖZÜ-SÖZÜN HAQQI.
Yeni YOL
31 mart 2016-ci il
№006 (20)
yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | "ახალი გზა" საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci ildən nəşr olunur

## TRAMVAY İCTİMAİ NƏQLİYYAT NÖVLƏRİNDƏN BİRİ OLMALIDIR

Tramvay yenə də Tbilisinin ictimai nəqliyyat növlərindən biri olmalıdır. Bu barədə paytaxt sakrebulosunun deputatı, yol hərəkətinin təhlükəsizliyi üzrə ekspert Şalva Oqbaidze bəyan edib.

2000-ci illərdə Tbilisinin tramvay sistemi dünya standartlarından çox geri qalırdı. Tramvayı avtobuslar və marşurut taksiləri sıxışdırdılar. Tbilisidə sonuncu tramvay xəttini 2006-cı ilin dekabrında ləğv etdilər.

"Sovet İttifaqının dağılmasından sonra Tbilisi hökuməti çox səhv buraxdı. Ən böyük səhvlərdən biri tramvayın ləğv edilməsi idi. Təəssüf ki, biz indi bu səhvləri düzəldirik. Aydındır ki, indi şəhərdə trolleybuslar üçün yer yoxdur, tramvaya gəlincə, bu ucuz, ekoloji cəhətdən təmiz, təhlükəsiz, tıxacdan qorxmayan sürətli nəqliyyatın bərpasına heç nə mane olmur", – Oqbaidze deyib.

Tramvay paytaxtda tıxacların azalmasına imkan yaradacaq. Belə ki, bu nəqliyyat 25-ə yaxın yüngül avtomobili əvəz edə bilir.

"Düşünürəm ki, sakrebulonun nüfuzu bu çağırış tramvayın paytaxta qaytarılması prosesinə başlamaqdan ibarətdir", – Oqbaidze qeyd edib.

Tbilisidə ilk elektrik tramvay xətti 25 dekabr 1904-cü ildən fəaliyyət göstərib. 1883-cü ildən 1910-cu ilədək isə şəhərdə atlardan istifadə etməklə "konka" adlanan nəqliyyatdan isifadə olunub.

## TBİLİSİDƏ MƏŞHUR HAMAMLAR BAĞLANA BİLƏR

Gürcüstan paytaxtı əfsanəvi kükürd hamamlarından məhrum ola bilər. Bu barədə onların sahibləri məlumat veriblər. Onların sözlərinə görə, bir neçə dəfə qiyməti qalxan suyun hesabını ödəyə bilmirlər, məcburiyyətdən bu cür addım atacaqlar.

Hamam rəhbərliyi qeyd edib ki, onlarla Georgian Water and Power şirkəti arasında güzəştli tarif haqqında şifahi anlaşma var idi. Lakin Georgian Water and Power şirkətinə yeni menecment gələn kimi, kompaniya hamamlara əvvəlkindən 15 dəfə çox hesab qoyub.



"Suyun kubmetrinə görə biz təxminən 10 tetri ödəyirdik. Hazırda GWP suyun bir kubmetrinə 85 tetri tələb edir. Fərqi rəqəmlərlə belə ifadə etmək olar. Biz əvvəllər 700 lari ödəyirdiksə, hazırda 10 min lari tələb edirlər", – hamamların direktoru Nodar Totoqaşvili bildirib.

## DÜNYANIN QEYRİ-ADİ VƏ BAHALI YEMƏKLƏRİ



Hər bir ölkənin mətbəxi bir-birindən köklü şəkildə fərqlənir, hər bir xalqın özünün ənənəvi yeməkləri olur. Bununla belə çox qeyri-adi və maraqlı yeməklər də var ki, istisnasız olaraq hansısa şəhərdə və ya restoranda hazırlanır. Bu yeməklər öz orjinallığı və tərkibi ilə fərqlənir.

Birinci yerdə Nyu-Yorkdakı Golden Gates restoranında adi ətdən əlavə, bəzən qızılbalıqdan hazırlanan pelmen gəlir. Pelmenə məşəl balığının vəzi qoyulur ki, bu da ona qeyri-adi göyümtül parlaqlıq verir. Belə yeməyi istənilən adam bu restoranda cəmi 2500 dollara əldə edə bilər.

Dünyada bahalı sendviç də mövcuddur. Bu sendviçlər "Fon Essen" otelinin restoranlarında satılır. Bu yeməyin tərkibinə xüsusi mayalanmış çörək, ağ yerdombalan göbələyi, bildirçin yumurtası və İtaliya pomidoru daxildir.

Ağ yerdombalanı qeyd etmədən keçmək olmaz. Bu göbələyin bir kiloqramı nə az, nə çox düz 30 min avrodur.

Ən bahalı şokalad isə yalnız ABŞ-da hazırlanır. Chocopologie by Knipschildt adlanan bu şokalada mağazalarda rast gəlmək mümkün deyil. Restoranlarda bu möcüzənin yarım koloqramı 2600 dollara satılır.

## QARDABANİ TARİX-DİYARŞÜNASLIQ MUZEYİNİN MÜRACİƏTİ

Əziz Qardabani sakinləri, 1990-cı ildən Qardabani bələdiyyəsində tarix-diyarşünaslıq muzeyi fəaliyyət göstərir. Muzeydə minlərlə arxeoloji, etnoqrafik və məişət mədəniyyətinə aid eksponat toplanıb. Muzeyin kollektivi üçün özündə etnoqrafik, mədəni-məişət və tarixi məlumat yaşadan və Azərbaycan xalqı üçün xarakterik olan materialların toplanması böyük əhəmiyyət daşıyır.

Ona görə də muzey materiallarının toplanmasında cəmiyyətin daha çox nümayəndəsinin iştirakı arzu olunandır. Bununla siz xalqımızın tarixinin, mədəniyyətinin və məişətinin populyarlaşdırılması və gələcək nəsillərə ötürülməsi işinə yardım etmiş olarsınız.

Hər cür məlumat üçün qəzetin redaksiyasına müracət etmənizi xahiş edirik.

Xeyirxahlığınıza görə əvvəlcədən təşəkkür edirik!

## ELİZBAR CAVELİDZENİN "FÜZULİ" MONOQRAFİYASI NƏŞR OLUNDU




Bu yaxınlarda tanınmış gürcü alimi Gürcüstan Milli Elmlər Akademiyasının həqiqi üzvü Elizbar Cavelidzenin klassik Azərbaycan şairi Məhəmməd Füzulinin həyat və yaradıcılığı barədə "Füzuli" monoqrafiyası Tiflisdə birgə şəkildə – gürcü və Azərbaycan dillərində nəşr olunmuşdur. Bu monoqrafiya ilk dəfə Tiflisdə "Nakaduli" nəşriyyatı tərəfindən gürcü dilində işıq üzü görmüşdür.

Monoqrafiyanı Azərbaycan dilinə araşdırmaçı-tərcüməçi Mirzə Məmmədoğlu tərcümə etmişdir. Onu da qeyd etmək lazımdlr ki, Mirzə Məmmədoğlu bundan öncə tanınmış gürcü alimi, iranşünas mərhum Konstantine Pağavanın "Mirzə Fətəli Axundov" və "Nizami" monoqrafiyalarını Azərbaycan dilinə çevirmişdir. Dahi Füzulinin vəfatının 460-cı ildönümünə həsr olunan bu kitab onun tərcüməçisi və tərtibçisi olan Mirzə Məmmədoğlunun öz hesabına işıq üzü görmüşdür.

Gürcüstan Yazıçıları Milli Akademiyasının Azərbaycan bölməsinin rəhbəri Mirzə Məmmədoğlu bu barədə demişdir:

- Məşhur türkoloq, Azərbaycan Respublikasının əməkdar mədəniyyət işçisi Elizbar Cavelidzenin bu monoqrafiyanı yazmaqda məqsədi gürcü gəncliyini, ümumiyyətlə, gürcü oxucusunu XVI əsr Azərbaycanın məşhur sənətkarı, Şərqin böyük şairlərindən biri Füzulinin həyat və yaradıcılığı ilə tanış etmək olub. Azərbaycan ədəbiyyatının yaxın dostu olan, tərcüməçilik sahəsində məhsuldar işləyən alim "Dədə Qorqud" dastanını (Giorgi Şağulaşvili ilə birlikdə), "Oğuznamə"ni gürcü dilinə tərcümə etmişdir. Kitabda tanınmış gürcü alimi Apollon Silaqadzenin "Gürcü türkologiyasının lideri" adlı yazısı və Füzulinin Gürcüstan Milli Əlyazmalar Mərkəzində saxlanılan XVIII əsrə aid gürcü transkripsiyası ilə yazılan qəzəli də verilib.

Kitabın təqdimatının yaxın vaxtlarda Nizami adına Ədəbiyyat İnstitutu ilə bir neçə il əvvəl qarşılıqlı əməkdaşlıq barədə memorandum imzalayan Şota Rustaveli adına Ədəbiyyatşünaslıq İnstitutunda və kitabın müəllifi Elizbar Cavelidzenin işlədiyi və komissiyalardan birinə rəhbərlik etdiyi Gürcüstan Milli Elmlər Akademiyasında keçirilməsi planlaşdırılır.

## 19 DELFİN ÖZÜNÜ SAHİLƏ ATIB

Gürcüstanın Qara dəniz sahillərində 19 delfinin özünü sahilə atdığı qeydə alınıb.

Onların ölüm səbəbinin "delfin taunu" adlandırılan yolxucu dəniz virusundan qaynaqlanma ehtimalını nəzərə alan Milli Ətraf Mühit Agentliyi əhaliyə həmin delfinlərə yaxınlaşmamaq barədə xəbərdarlıq edib.

Gürcüstan Milli Ətraf Mühit Agentliyinin bəyanatında hazırda mütəxəssislərin delfinlər üzərində araşdırma apardığı bildirilir.

## BAŞSAĞLIĞI

"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə təşkilatı"ının və "Yeni Yol" qəzetinin əməkdaşları BGMİ-nin Şərqi Gürcüstan üzrə müftisi Yasin Əliyevə atası

**Musa Mustafa oğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin!

Kosalı ictimai məktəbinin pedaqoji kollektivi iş yoldaşları Qəzənfər Qulamova, Xanım Qulamovaya və Rəna Əhmədovaya əzizləri

**Göyçək Xoca qızının**

vəfatından kədərləndiyini bildirir, mərhumənin ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Elçin Hüseynbəyli, Əjdər Ol, İbrahimxəlil, Kəramət, Qəşəm Nəcəfzadə və Təhməz Abbasov şair Elman Səmədoğluna əzizi

**Nəriman Novruz oğlunun**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Kosalı ictimai məktəbinin pedaqoji kollektivi iş yoldaşları Tamella Aslanovaya dayısı

**Mirzalı İsmayıl oğlunun**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və doğmalarına dərin hüznlə başsağlığı verir.

Allah rəhmət eləsin!

Təsisçi:
"Gürcüstan gənclərinə Yardım və Maarifləndimrə Təşkilatı"

Redaktor:
Afiq Muxtaroğlu
Yayım Direktoru:
Hacı Bəkiroğlu

Ünvan: Qardabani şəh, Kolxoz küç, 4
Tel/ (+995) 595 92 25 70
599 54 12 92
email: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir.
Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər.
Qəzet həlalik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır.
Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.